№ 28 (1023) 12-18 iyul 2018-ci il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiymәti razılaşma yolu ilә | Qəzet 1999-cu ildən çıxır

# Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı sarsılmazdır, əbədidir

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanda rəsmi səfərdə olmuşdur.
İyulun 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olub.
Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirilmişdir. Söhbət zamanı ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.
Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə geniş tərkibdə görüşü olub.

* * * * *

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatlarla çıxış ediblər.

**Prezident İlham Əliyevin bəyanatı**

-Cənab Prezident, Sizi Azərbaycanda səmimi qəlbdən salamlayıram, ölkəmizə, öz Vətəninizə xoş gəlmisiniz.
Fürsətdən istifadə edərək, ilk növbədə, Sizi prezident seçkilərində qazandığınız inamlı qələbə münasibətilə bir daha ürəkdən təbrik edirəm, Sizə gələcək fəaliyyətinizdə yeni uğurlar arzulayıram.
Biz çox şadıq ki, Siz seçkilərdən sonra ilk rəsmi səfərinizi Azərbaycana edirsiniz. Dünən Türkiyədə Sizin andiçmə mərasiminiz keçirilmişdir və bu gün Siz Azərbaycanda rəsmi səfərdəsiniz. Bu, bir daha onu göstərir ki, Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı sarsılmazdır, əbədidir. Sizin səfəriniz bir daha Türkiyə-Azərbaycan qardaşlığının nümunəsidir, bir daha bizim birliyimizi göstərir.
Türkiyə xalqı Sizə yenidən böyük etimad, dəstək göstərmişdir. Siz uzun illər ərzində Türkiyənin inkişafı üçün çox böyük işlər görürsünüz. Sizin liderliyiniz ilə Türkiyə böyük və şərəfli yol keçmişdir, dünya miqyasında böyük gücə çevrilmişdir. Türkiyə bu gün beynəlxalq məsələlərdə söz sahibidir. İqtisadi islahatlar uğurla aparılır. İqtisadi inkişafa görə Türkiyə dünya miqyasında ən qabaqcıl yerlərdədir. Sizin liderliyinizlə Türkiyədə sabitlik tam bərqərar olub. Biz Azərbaycan xalqını Türkiyənin uğurları çox sevindirir. Türkiyə-Azərbaycan əlaqələrinin bu səviyyəyə çatmasında bizim birgə səylərimiz də mühüm rol oynayır. Bizim aramızda şəxsi dostluq əlaqələri mövcuddur və bu əlaqələr ölkələrimizi bir-birinə daha sıx bağlayır. Bu gün Türkiyə-Azərbaycan əlaqələri ən yüksək zirvədədir. Biz bütün məsələlərdə bir yerdəyik, bütün beynəlxalq məsələlərdə bir-birimizi daim dəstəkləyirik, bir-birimizin yanındayıq. Türkiyə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində daim Azərbaycana böyük dəstək göstərir. Dünya miqyasında bu məsələ ilə bağlı Azərbaycana ən böyük dəstək verən ölkə Türkiyədir.
Bildiyiniz kimi, uzun illərdir ki, torpaqlarımız Ermənistan tərəfindən işğal edilib. Bu işğal nəticəsində xalqımız etnik təmizləməyə məruz qalıb. Bu münaqişənin tezliklə həlli beynəlxalq hüquq normalarının bərpası demək olacaqdır. BMT Təhlükəsizlik Şurası münaqişə ilə bağlı 4 qətnamə qəbul etmişdir. Orada açıq-aydın göstərilir ki, erməni silahlı qüvvələri Azərbaycanın torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Bu qətnamələr icra edilməlidir, ölkəmizin ərazi bütövlüyü bərpa olunmalıdır.
Türkiyənin bu məsələ ilə bağlı mövqeyi beynəlxalq hüquq normalarına uyğundur və eyni zamanda, Türkiyə-Azərbaycan qardaşlığına, dostluğuna əsaslanır.
Bizim ticarət dövriyyəmiz artır və daha da artmalıdır. Qarşılıqlı sərmayə qoyuluşu davam edəcək. Bu günə qədər Azərbaycan Türkiyə iqtisadiyyatına 13,9 mlrd. dollar sərmayə qoyub. Türkiyə şirkətləri isə Azərbaycana 12 mlrd. dollardan çox vəsait yatırıblar. Bu böyük rəqəmlər, əslində, bizim əlaqələrimizi göstərir. Çünki ancaq qardaş ölkələrə bu qədər böyük sərmayə qoyula bilər.
Bildiyiniz kimi, biz ölkələrimiz, xalqlarımız və dünya üçün böyük əhəmiyyət daşıyan enerji layihələrini birlikdə həyata keçiririk. Keçən ay Əskişəhər şəhərində TANAP-ın açılışında bərabər olmuşuq. Bu, təbiidir və çox böyük məntiqə əsaslanır. Çünki TANAP layihəsinin təməlini biz 2012-ci ildə İstanbulda birlikdə qoymuşuq. Aramızda imzalanmış TANAP üzrə saziş artıq gerçəkləşdi və bu tarixi layihəyə start verildi.
"Cənub Qaz Dəhlizi" layihəsinin uğurla icrası başa çatır. TANAP layihəsinin başa çatması bu istiqamətdə atılan çox böyük addımdır.
Nəqliyyatla bağlı layihələr həm ölkələrimizi gücləndirir, eyni zamanda, qitələr arasında sağlam bağlantı yaradır. Türkiyə-Azərbaycan birliyi, dostluğu regional sabitlik üçün böyük fayda verir. Əminəm ki, Türkiyənin və Azərbaycanın birgə səyləri ilə bölgədə sülh yaranacaq. Türkiyənin hərbi potensialı çox güclüdür. Dünya miqyasında Türkiyə Ordusu ən güclü ordular sırasındadır. Hərbi sahədə bizim əməkdaşlığımız çox uğurla davam edir. Azərbaycan Türkiyədən böyük sayda hərbi texnika alır. Ötən ay Azərbaycanda keçirilmiş hərbi paradda bu texnikanın bir hissəsi göstərilmişdir. Bizim əlaqələrimiz çoxşaxəlidir. Əlaqələrin təməlində xalqlarımızın, dövlətlərimizin birliyi, ortaq maraqları dayanır. Biz dostuq, qardaşıq. Türkiyə Prezidentinin seçkilərdən sonra birinci səfərini Azərbaycana etməsi bunu bir daha göstərir.



**Prezident Rəcəb Tayyib Ərdoğanın bəyanatı**

- Hörmətli cənab Prezident, əziz qardaşım.
Əvvəlcə sizləri öz adımdan və nümayəndə heyətim adından ən səmimi duyğularla salamlayıram. İyunun 24-də keçirilən seçkilərdən sonra dünən prezident kimi and içdim. Prezident kimi and içdikdən sonra ilk səfərimi bu səhər qardaş, dost Azərbaycana etmək vəzifəmizi yerinə yetirmək istədim.
Təbii ki, Azərbaycan ilə istər enerji sahəsindəki əlaqələrimiz, istərsə də müdafiə sənayesi istiqamətində addımlarımız çox böyük əhəmiyyət daşıyır. Bundan sonrakı prosesdə də TANAP layihəsi, - bizim üçün, Azərbaycan üçün həyati əhəmiyyətli layihədir, - təkcə Azərbaycan-Türkiyə deyil, eyni zamanda, Azərbaycan-Avropa bağlantısını qurmaq baxımından böyük əhəmiyyət kəsb edir. Bu layihə bizi ciddi mənada maraqlandırır və bu, qardaşlığımızın bir təzahürü olaraq, eyni zamanda, strateji investisiya yatırılması baxımından da əhəmiyyətlidir. TANAP ilə əlaqədar Əskişəhərdə atdığımız addım həqiqətən də həyati bir addımdır. Bütün bunlardan başqa, Azərbaycanın sərmayə sahəsində Türkiyədəki Əliağa layihəsi həqiqətən hər cür təqdirdən daha böyükdür. Bu layihə təməli qoyulduğu gündən get-gedə davam edən, böyüyən bir sərmayə olaraq özünü göstərir. İndi də, inşallah, bu sərmayəni daha da genişləndirməyin və reallaşdırılmaqda olan bəzi layihələrin də payızda açılışını etməklə bunları birlikdə həyata keçirəcəyik.
Təbii ki, bizim Türkiyə-Azərbaycan əlaqələrimiz, bildiyiniz kimi, "Bir millət, iki dövlət" anlayışı əsasında inkişaf edir. Bu anlayışa bağlı olaraq əlaqələrimizi bu səviyyəyə çatdırdıq və irəliyə aparmaqda davam edəcəyik.
Gəldiyimiz andan etibarən göstərilən ev sahibliyinə görə şəxsən öz adımdan və nümayəndə heyətim adından ayrıca təşəkkür edirəm. Hazırda ikitərəfli ticarət dövriyyəmiz hər keçən gün artır. Yüksək səviyyəli səfərlər gündən-günə artaraq davam edir. Bunlar aramızdakı qardaşlıq duyğularının nə qədər yüksək səviyyədə olduğunu göstərməsi baxımından çox vacibdir.
Müdafiə sənayesi sahəsində Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr də bu baxımdan əhəmiyyət daşıyır. Türkiyə müdafiə sənayesi sahəsində, bildiyiniz kimi, bundan 15 il əvvəl möhtac bir millət ikən, indi ehtiyaclarının böyük bir qismini artıq özü ödəyə bildiyi səviyyəyə gəlib - 20% səviyyəsində ikən, hazırda 65 faizini özü ödəyən ölkəyə çevrilib. Bununla da müdafiə sənayesi sahəsində də ixracatı artıran bir Türkiyə var.
Digər bir məsələ ilə bağlı - xüsusilə Azərbaycanda FETÖ ilə mübarizəyə İlham qardaşımın verdiyi dəstəyə görə öz adımdan və millətim adından ona təşəkkür edirəm. Çünki onlar burada da özlərinə yer tapmağa cəhd göstərdilər. Bunun üçün hər vasitəyə əl atdılar. Fəqət, istər İlham qardaşımın bu məsələdə həssaslığı, istərsə də bizdə olub, Azərbaycan əleyhinə fəaliyyət göstərənlərə qarşı koordinasiyalı işimiz bir çox məsələnin ardıcıl həll olunmasını təmin etdi. Maarif Vəqfimiz ilə, inşallah, Azərbaycanın Təhsil Nazirliyinin birlikdə həyata keçirəcəyi fəaliyyətlə buradakı boşluğu da aradan qaldırmaq imkanı əldə edəcəyik.
Təbii ki, ikitərəfli ticarət məsələsində hədəfimiz, inşallah, mövcud rəqəmi iki, üç dəfə artırmaqdır. Digər bir məsələ isə xüsusilə Dağlıq Qarabağ və Naxçıvanla bağlı problemləri aradan qaldırmaq üçün Türkiyə olaraq əlimizdən gələni etdik. Bu məsələni daim diqqət mərkəzində saxladıq. Naxçıvanla ölkəmiz arasında quru yolundakı problemlər həll edilmiş vəziyyətdədir. İndi yeni bir addım olaraq, - bu məsələ ilə əlaqədar daha əvvəl də İlham qardaşımla danışmışdıq, - lazım gələrsə dəmir yolu məsələsini də həll etməklə aradakı bu əlaqələri daha yüksək səviyyəyə çatdırmaq hər iki ölkəyə əlavə güc verəcək.
Həmçinin cənab Prezident ilə gündəmə gətirdiyimiz səhiyyə sahəsində, Naxçıvanda yaşayan qardaşlarımızın xüsusilə Türkiyədəki sərhədboyu bölgələrdə tədris-müalicə ocaqlarında, dövlət xəstəxanalarında onlara hər cür rahatlığı öz xalqımıza təmin etdiyimiz kimi şərait yaratmaqla bağlı dəstək verəcəyimizi özünə bildirdim. Bu məsələdə də birliyimizin, həmrəyliyimizin olmasının vacibliyinə inandığımı xüsusilə söylədim.
Fürsətdən istifadə edərək İlham qardaşımın timsalında bütün Azərbaycan xalqına öz adımdan və millətim adından ən səmimi hisslərlə salam, sevgi və ehtiramımı ifadə etmək istəyirəm. Bir daha sağlıqla qalın.

# Azərbaycan Prezidenti İlham Əliyev Belçikada səfərdədir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev NATO-nun baş katibi Y.Stoltenberqin dəvətilə NATO-nun Zirvə toplantısında iştirak etmək üçün iyulun 10-da Belçika Krallığının paytaxtı Brüssel şəhərinə gedib.



# Bu il Azərbaycan həm iqtisadi, həm beynəlxalq siyasət sahələrində uğurlar əldə etmişdir



İyulun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

Dövlətimizin başçısı iclası giriş nitqi ilə açmışdır. Prezident İlham Əliyev demişdir:

- İlin altı ayında qarşıda duran bütün vəzifələr uğurla icra edildi, Azərbaycan öz dinamik inkişaf templərini saxlaya bildi. Bu il Azərbaycan həm iqtisadi, həm beynəlxalq siyasət sahələrində uğurlar əldə etmişdir.

Aprel ayında keçirilmiş prezident seçkiləri bir daha onu göstərdi ki, Azərbaycan xalqı bizim siyasətimizə çox böyük dəstək verir. Seçkilərdə qazandığım inamlı qələbə onu göstərir ki, son 15 il ərzində görülmüş işlər Azərbaycan xalqı tərəfindən çox yüksək qiymətləndirilir. Bu böyük dəstək bizə imkan verəcək ki, bundan sonra da ölkəmizi inkişaf yolu ilə inamla irəliyə aparaq.

Xarici siyasətə gəldikdə, deyə bilərəm ki, bu ilin altı ayında bu sahədə böyük işlər görülmüşdür, Azərbaycan beynəlxalq əlaqələrini möhkəmləndirə bilmişdir. Qonşu dövlətlərlə bizim ənənəvi dostluq, strateji tərəfdaşlıq əlaqələri vardır. Altı ayda qonşu ölkələrin dövlət və hökumət başçıları ilə mənim bir neçə görüşüm olmuşdur. İlin ikinci yarısında da görüşlər nəzərdə tutulur. Bildiyiniz kimi, Azərbaycan müsəlman aləmində çox böyük hörmətə, nüfuza malik olan bir ölkədir. Keçən il elan olunmuş "İslam Həmrəyliyi İli" bu əlaqələri daha da möhkəmləndirmişdir. Bildiyiniz kimi, bu il Naxçıvan İslam mədəniyyətinin paytaxtı şəhəridir. Müsəlman ölkələri ilə ənənəvi dostluq, qardaşlıq əlaqələri möhkəmlənmişdir.

Biz indi Avropa İttifaqı ilə yeni Saziş üzərində işləyirik. Avropa İttifaqına üzv ölkələrin üçdəbir hissəsi ilə Azərbaycanın strateji tərəfdaşlığı haqqında sənədlər vardır. Bu, əlbəttə, onu göstərir ki, Azərbaycan Avropa üçün strateji əhəmiyyət daşıyan ölkədir.

Deyə bilərəm ki, bu ilin birinci yarısında Amerika Birləşmiş Ştatları ilə bizim əlaqələrimiz yeni mərhələyə qalxmışdır. Amerika Prezidenti cənab Donald Tramp aprel-may aylarında mənə üç məktub ünvanlamışdır. Seçkilərlə, ondan sonra Xalq Cümhuriyyətinin 100 illiyi və Cənub Qaz Dəhlizinin rəsmi açılışı ilə bağlı göndərilən məktublar Amerika hökumətinin Azərbaycana olan münasibətini, hörmətini göstərir. Məktublarda çox dəyərli sözlər ifadə edilmişdir və biz çox şadıq ki, bu gün Amerika-Azərbaycan əlaqələri öz əsl mahiyyətini əks etdirir. Əminəm ki, gələcək illərdə bu əlaqələr daha da möhkəmlənəcək.

Beləliklə, apardığımız uğurlu xarici siyasət nəticəsində Azərbaycan, demək olar ki, bütün ölkələrlə, bütün güc mərkəzləri ilə çox səmərəli, işgüzar, bərabərhüquqlu münasibətlər qura bilmişdir. Bu münasibətlər qarşılıqlı inam, hörmət, bir-birinin işinə qarışmamaq prinsipləri əsasında qurulur. Beləliklə, ölkəmizin uğurlu inkişafı üçün çox gözəl beynəlxalq mühit mövcuddur. Deyə bilərəm ki, bu mühiti biz yaratmışıq. Əminəm ki, bundan sonra da bu istiqamətdə ardıcıl siyasət aparacağıq.

Bu il Bakıda üzvlərinin sayına görə dünyanın ikinci böyük təşkilatının – Qoşulmama Hərəkatının xarici işlər nazirlərinin konfransı keçirilmişdir. Bu tədbirdə də bizim siyasətimizə dəstək göstərilmişdir. Gələn ildən Azərbaycan bu böyük mötəbər təşkilata sədrlik edəcək. Gələn il Azərbaycanda Zirvə görüşü keçiriləcəkdir. Bu, bir daha ölkəmizə olan hörmətin təzahürüdür. Onu göstərir ki, bizim apardığımız siyasət çox böyük rəğbət doğurur və çox böyük hörmətə layiqdir.

Dövlət başçısı bu müsbət fonda Ermənistanda nələr baş verdiyini belə xarakterizə etmişdir: 20 il ərzində kriminal, korrupsioner, qaniçən, oğru, yalançı hakimiyyət tam iflasa uğradı. Mənim dediklərimi indi erməni xalqı deyir. Mən bir neçə dəfə ən mötəbər kürsülərdən, BMT kürsüsündən Ermənistanın əvvəlki hakimiyyətini ittiham etmişdim. Demişdim ki, bu, kriminal xunta rejimidir, indi bunu erməni xalqı deyir. Demişdim ki, bu, korrupsiyaya qurşanmış oğru rejimidir, indi bunu erməni xalqı deyir. Demişdim ki, bu rejim öz xalqının qanını içir. Bu gün biabırcasına hakimiyyətdən qovulmuş Sarkisyan rejimi, əslində, Ermənistanın dövlətçiliyinin iflasıdır. Çünki əgər müstəqilliyinin 26 ilində, onun 20 ili bu hakimiyyət altında keçmişdisə, onda bu dövlətin hansı müsbət cəhətləri var?! Ermənistan uğursuz dövlətdir. Ermənistan dövlətçiliyi iflasa uğrayıb. Onların qəhrəmanları, onların generalları oğrulardır, onların ordusu oğru ordusudur. Bunu indi Ermənistan xalqı görür və Ermənistan hakimiyyəti deyir. Haqq-ədalət öz yerini tapdı və 20 il Ermənistana rəhbərlik etmiş oğru, kriminal rejim tam biabır olaraq siyasi səhnədən qovuldu. Deyə bilərəm ki, bu rejimin çökməsində bizim də rolumuz olub, onu mən şişirtmək istəmirəm, bunu biz, necə deyərlər, öz adımıza çıxmaq istəmirik. Ancaq o da həqiqətdir ki, bizim apardığımız siyasət nəticəsində Ermənistan onlara gəlir gətirə biləcək bütün layihələrdən məhrum edildi. Mən dəfələrlə demişəm ki, Ermənistandan hər il minimum 50-60 min insan köç edir. İndi bunu yeni hökumət təsdiqləyir. Yəni, bu təcrid siyasətimiz öz rolunu oynadı, biz Ermənistanı bütün regional layihələrdən təcrid etdik. İqtisadi perspektivi olmayan ölkədə inkişaf da olmaz, sərmayə də qoyulmaz, insanların əhval-ruhiyyəsi də yaxşı səviyyədə olmaz.

İki il bundan əvvəl Aprel döyüşləri də Ermənistanın o çürük və laxlamış sütunlarını daha da sarsıtdı. Aprel döyüşləri Sarkisyan rejiminə elə böyük zərbə oldu ki, onlar iki il ərzində bu zərbədən özünə gələ bilmədilər və əlbəttə, uzun illər yaratdıqları mif, - guya onların ordusu güclü ordudur, - darmadağın edildi. Biz bu mifi məhv etdik. Uzun illər ərzində təmas xəttində qurduqları "möhkəm istehkam"ı bir neçə gün ərzində darmadağın etdik və bu da Ermənistan cəmiyyətində böyük məyusluq yaratdı. Ümid edirəm ki, Ermənistanın yeni hökuməti kriminal rejimin səhvlərini təkrarlamayacaq, münaqişənin həlli ilə bağlı konstruktiv mövqe tutacaq və münaqişə tezliklə həllini tapacaq, ölkəmizin ərazi bütövlüyü bərpa ediləcək.

Münaqişənin həllinə gəldikdə isə bunun bir yolu var: işğalçı qüvvələr işğal edilmiş torpaqlardan çıxarılmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi icra olunmalıdır. Bu qətnamələr qüvvədədir və bu qətnamələrdə açıq-aydın göstərilib ki, - əgər kimsə bunu unudubsa, xatırlada bilərəm, - erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Bu qətnamələr qüvvədədir və qüvvədə olacaq.

Qeyd etdiyim kimi, beynəlxalq əlaqələrimiz möhkəmlənir, Azərbaycanın ərazi bütövlüyünə dəstək artır. Eyni zamanda, Ordumuzun döyüş qabiliyyəti çox yüksək səviyyədədir və bunu yaxın tarix göstərib. 2016-cı ilin Aprel döyüşləri və qazandığımız böyük qələbə, 2018-ci ilin mayında Naxçıvan əməliyyatı və minlərlə hektar torpağın işğalçılardan azad edilməsi - bütün bunlar Azərbaycan Ordusunun döyüş qabiliyyətini göstərir. Əlbəttə ki, bizim inkişafımızın təməlində həm düşünülmüş siyasət, həm güclü iradə, eyni zamanda, güclü iqtisadiyyat dayanır. İqtisadi baxımdan 15 il ərzində Azərbaycan qədər inkişaf edən ikinci dövlət yoxdur. Hətta böhranlı illərdə də biz öz iqtisadi gücümüzü qoruya bilmişik. Deyə bilərəm ki, biz böhrandan az itkilərlə çıxa bilmişik.

Bu ilin göstəriciləri isə onu deyir ki, əvvəlki illərdə apardığımız islahatlar və bu il aparılan islahatlar gözəl nəticələr verir. Mən bəzi rəqəmləri Azərbaycan ictimaiyyətinə çatdırmaq istərdim. **Beləliklə, altı ay ərzində ümumi daxili məhsul 1,3 faiz artmışdır. Hesab edirəm ki, bu, yaxşı göstəricidir. Ondan daha yaxşı göstərici odur ki, qeyri-neft sektorumuz 2 faiz artmışdır. Sənaye istehsalı 1 faiz artsa da, bu da məqbul rəqəmdir. Qeyri–neft sənayemiz 8,8 faiz artmışdır.** Bu, onu göstərir ki, qeyri-neft sektoruna qoyulan investisiyalar, sahibkarlara göstərilən dəstək öz bəhrəsini verir.

**Kənd təsərrüfatı 7,6 faiz artmışdır. Xüsusilə bitkiçiliyi qeyd etmək istərdim. Bitkiçilik 14 faizdən çox artmışdır. 67 min yeni iş yeri yaradılmışdır. Onlardan 58 mini daimi iş yeridir. Ölkə iqtisadiyyatına 6 milyard dollar sərmayə qoyulmuşdur. İnflyasiya cəmi 3 faizdir. Əhalinin pul gəlirləri 9,3 faiz artmışdır. İnflyasiyanın aşağı səviyyədə olması onu göstərir ki, ölkəmizdə makroiqtisadi sabitlik tam təmin edilir.**

**Xarici ticarət dövriyyəsi 35 faiz artmışdır. İxrac 34 faiz, o cümlədən qeyri-neft ixracı 20 faiz artmışdır. Xarici ticarətin müsbət saldosu 4,2 milyard dollardır, əlbəttə ki, ilin sonuna qədər daha da artacaq. Bu, çox böyük rəqəmdir, bir daha onu göstərir ki, makroiqtisadi sabitlik tam təmin edilir.**

Bu ilin birinci yarısında həm nəqliyyat, həm energetika sahələrində önəmli hadisələr baş vermişdir. May ayında Ələt Beynəlxalq Dəniz Ticarət Limanı istifadəyə verilmişdir. Bu, çox böyük hadisədir. Deyə bilərəm ki, bu, keçən il Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsindən sonra nəqliyyat sektorunda ikinci böyük hadisədir.

Cənub Qaz Dəhlizinin reallaşmasında da çox böyük addımlar atılıb. May ayında Cənub Qaz Dəhlizinin rəsmi açılışı olmuşdur və bu, tarixi hadisədir. İyun ayında isə TANAP-ın rəsmi açılışı oldu. Beləliklə, Cənub Qaz Dəhlizinin dörd layihəsindən üçü artıq reallaşıb - "Şahdəniz-2", Cənubi Qafqaz Kəməri və TANAP layihəsi. Dördüncü layihə - TAP qrafik üzrə icra edilir.

Bunlar bu ilin altı ayında əldə edilmiş əsas nailiyyətlərdir.

**Prezident İlham Əliyevin yekun nitqindən:**

- Ötən altı ayın göstəriciləri deməyə əsas verir ki, biz 2018-ci ilin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələrə uğurla nail olacağıq. Bundan sonrakı illərdə Azərbaycan iqtisadiyyatı dinamik şəkildə inkişaf etməlidir. Bunu təmin etmək üçün, əlbəttə ki, islahatlar daha da dərinləşməlidir.

Son illər ərzində apardığımız islahatlar öz gözəl bəhrəsini vermişdir. Əgər biz bu islahatları aparmasaydıq, bu qədər böyük iqtisadi uğurlara çata bilməzdik. Ancaq hesab edirəm ki, indiki dövrdə biz bu islahatları daha da dərinləşdirməliyik. Elə etməliyik ki, Azərbaycan iqtisadiyyatı uzunmüddətli, gələcəkdə dayanıqlı iqtisadiyyat kimi özünü göstərsin, neftdən, qazdan asılılıq daha da aşağı düşsün və qeyri-neft sektorunun inkişafı sürətlə davam etdirilsin.

İqtisadi və maliyyə sektorlarında maksimum şəffaflıq təmin edilməlidir. Bu şəffaflıq imkan verəcək ki, Azərbaycan iqtisadiyyatı daha inamla inkişaf etsin, qeyri-neft sektorumuza xarici sərmayə daha böyük həcmlə qoyulsun.

**Deyə bilərəm ki, son vaxtlar vergi və gömrük sistemlərində aparılan islahatlar öz bəhrəsini verir. Bu sahələr bir-birinə bağlı olan sahələrdir və əlbəttə ki, islahatlar hər iki sahədə paralel olaraq aparılmalıdır və aparılır. Əminəm ki, görülmüş işlər nəticəsində yaxın gələcəkdə biz daha da böyük nəticələri görəcəyik. Vergi və gömrük orqanları dünyanın inkişaf etmiş ölkələrinin səviyyəsinə qalxmalıdır. Yəni, sadə dillə desək, vəzifə bundan ibarətdir.**

Əlbəttə ki, kadr dəyişikliyi aparılmalıdır və aparılır. Əminəm ki, bu, öz bəhrəsini verəcək. Qabaqcıl ölkələrin təcrübəsi Azərbaycanda tətbiq edilməlidir. Bütün dövlət qurumları, eyni zamanda, sahibkarlar da bilməlidirlər ki, vergi və gömrük sistemlərində tam şəffaflıq təmin edilir, bərabər şərait yaradılıbdır, qeyri-sağlam rəqabətə son qoyulur. Sahibkarlar tam aydın bilməlidirlər ki, işləmə qaydaları nədən ibarətdir. O da çox sadədir: qanunlara riayət etmək, vergiləri tam ödəmək, qaçaqmalçılıqla məşğul olmamaq və ölkə iqtisadiyyatına ziyan vurmamaq. Əsas şərtlər bundan ibarətdir.

Sahibkarlar da öz tərəfindən bu işlərdə məsuliyyətlərini göstərməlidirlər. Vergidənyayınma hallarına son qoyulmalıdır. Bu, kiçik və böyük sahibkarlara aiddir. Hamı qanun qarşısında bərabər olmalıdır. Vergi və gömrük orqanlarının rəhbərliyi qarşısında mənim tapşırıqlarım bundan ibarətdir. Heç kimin heç bir güzəşti yoxdur, ola da bilməz. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yeni rəhbərliyi qarşısında belə vəzifələr qoyulub. Bu sahədə buraxılmış səhvlər, pozuntular tam aradan qaldırılmalıdır. Sosial ədalət tam bərqərar olmalıdır və şəffaflıq tam təmin edilməlidir. Dövlət bu sahəyə çox böyük diqqət göstərir və mən dəfələrlə demişəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır, xüsusilə sosial cəhətdən az təmin edilmiş vətəndaş. Məhz buna görə biz ünvanlı sosial yardım sisteminə keçmişik. Məhz buna görə yüz minlərlə ailə dövlətdən bu təminatı alır.

Bununla bərabər, sosial sahənin şəffaflaşdırılması və beynəlxalq təcrübə əsasında fəaliyyət göstərməsi bizim iqtisadi inkişafımıza da böyük təkan verəcək.

Sosial cəhətdən az təmin edilmiş vətəndaşlara dövlət həmişə öz dəstəyini göstərəcək. Bizim siyasətimiz bundan ibarətdir və vətəndaşlar narahat olmasınlar.

Əlbəttə ki, ağır vəziyyətdə yaşayan, hələ də işsiz olan vətəndaşlar üçün biz yeni şərait yaratmalıyıq. Azərbaycanda iş yerlərinin yaradılması prosesi daim aparılmalıdır. Mən giriş sözümdə dedim ki, 58 min yeni daimi iş yeri açılmışdır. Ancaq, eyni zamanda, 20 mindən çox iş yeri bağlanmışdır. Əgər bu rəqəmlərə baxsaq görərik ki, yenə də dinamika müsbətdir. Ancaq bağlanmış iş yerlərinin təhlili aparılmalıdır. Hansı səbəblərə görə bu iş yerləri bağlanıb və o iş yerlərini itirən vətəndaşlar hansı işlərlə təmin olunub və olunubmu, yoxsa yox?

Bizim özünüməşğulluq proqramına böyük ümidlərimiz var. Bu proqram həm iqtisadi inkişafımıza təkan verəcək, xüsusilə regionlarda həm məşğulluq probleminin həllini sürətləndirəcək, eyni zamanda, bəzi vətəndaşlarımızı ələbaxımlıq vərdişindən çəkindirəcək. Özünüməşğulluq proqramını icra etmək üçün indi kifayət qədər vəsait var. Hesab edirəm ki, hər il 6-7 min insan bu proqrama cəlb olunarsa, bir neçə ildən sonra heç sosial yardıma da ehtiyac qalmayacaq və insanlar öz halal zəhmətləri ilə pul qazanacaqlar, ailələrini saxlayacaqlar və ölkə iqtisadiyyatına töhfələrini verəcəklər.

Korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə daha ciddi aparılmalıdır. Aprel ayında formalaşmış yeni hökumət qarşısında bu vəzifə çox kəskin qoyulmuşdur. Bu xoşagəlməz hallara son qoyulmalıdır. Son illər ərzində böyük işlər görülüb və beynəlxalq təşkilatlar da bunu qeyd edir. Bu məsələ ilə məşğul olan beynəlxalq təşkilatların reytinqlərində Azərbaycan daim irəliyə gedir. Ancaq irəliləyiş olsa da, bu, bizi qane edə bilməz. Azərbaycanda bu böyük sosial bəlanın kökü kəsilməlidir. Bunu etmək üçün də imkanlar var.

Korrupsiyaya, rüşvətxorluğa qarşı bundan sonra da çox ciddi mübarizə aparılacaq.

Biz elə etməliyik ki, korrupsiya hallarının baş verməməsi üçün institusional mexanizmlər işə düşsün. Biz bəzi müsbət meyilləri də görürük. Misal üçün, ictimai xidmətlər sahəsində "ASAN xidmət" korrupsiyadan tam azad bir qurumdur. "ASAN xidmət"ə 20 milyondan çox müraciət olunub və vətəndaşların bəyənmə əmsalı 100 faizə yaxındır. Yəni, bunu etmək mümkündür. Sadəcə, siyasi iradə olmalıdır, bu da var və çox ciddi tədbirlər görülməlidir, o cümlədən cəza tədbirləri görülür və görüləcək. Ancaq onu da deməliyəm ki, bəzi hallarda inzibati cəza tədbirləri işləmir. Ona görə ən ciddi beynəlxalq təcrübə tətbiq edilməlidir.

**Narahatlıq doğuran sahələrdən biri də inşaat sektorudur. Son illərdə bu sahədə böyük işlər görülüb. Azərbaycanın demək olar ki, bütün şəhərləri tikinti meydançasına çevrilibdir. Həm dövlət kapital qoyuluşu, həm özəl sektor tərəfindən qoyulan investisiyalar inşaat sektorunun inkişafına böyük təkan vermişdir. Azərbaycanda inşaat materiallarının istehsalı ildən-ilə artır. Deyə bilərəm ki, biz bu gün özümüzü əsas inşaat materialları ilə təmin edə bilirik. İlk növbədə, ona görə ki, daxildə buna tələbat var.** Çünki biz çox az miqdarda inşaat materiallarını xaricə satırıq. Qarşıya vəzifə qoyulmuşdur ki, idxaldan asılılığımızı azaldaq və daxili bazarı yerli inşaat materialları ilə təmin edək. Yəni, inşaat sektorunun inkişafı ümumi iqtisadi inkişafa təkan verir, məşğulluğu artırır. İki-üç il ərzində inşaat sektorunda müəyyən böhran yaranmışdır və bu, əmək bazarına da dərhal öz mənfi təsirini göstərmişdir. Bu məsələlər bir-biri ilə sıx bağlı olan məsələlərdir. Bir daha demək istəyirəm ki, bu sahədə görülən işlər müsbətdir. Ancaq, eyni zamanda, biz nəyi görürük? Bir çox hallarda aparılan tikintilər heç bir meyara sığmır, nə şəhərsalma meyarlarına, nə tikinti meyarlarına. Bəzən memarlıq baxımından çox eybəcər binalar tikilir. Buna son qoymaq üçün çox ciddi tədbirlər görülməlidir və qanunsuz tikililərə son qoyulmalıdır.

Qanunsuz tikililərə şərait yaradan dövlət məmurları çox ciddi cəzalandırılacaqlar. Mən deyirəm, bunu hamı bilsin. Çünki bir çox hallarda bu işləri bir-birinin üstünə atırlar. Şəhər icra hakimiyyəti bələdiyyələrin üstünə, bələdiyyələr şəhər icra hakimiyyətinin üstünə. Amma faktiki olaraq bələdiyyələr şəhər icra hakimiyyətinin icazəsi olmadan belə hərəkət edə bilməz. Ona görə burada vahid bir nəzarət mexanizmi olmalıdır.

Bakı bu gün dünyanın ən gözəl şəhərlərindən biridir. Ancaq, eyni zamanda, Bakı şəhərində elə yerlər var ki, utanc gətirir. Binalar heç bir qaydaya riayət olunmadan bir-birinin yanında, ictimai yerlərdə, həyətlərdə tikilir. Bu binaların tikilməsinə kim icazə verir?! Yerli icra orqanları. Bu icazəni təmənnasızmı verir?! Əlbəttə ki, yox.

Biz paytaxtımızı parklar, bağlar, ictimai zonalar şəhərinə çevirmişik. İndi yadınıza salın, əvvəlki dövrlərdə qanunsuz tikilmiş, bir-birinin içinə girmiş binalar həm orada yaşayanlara, həm də şəhər əhalisinə nə qədər əziyyət verirdi. İndi biz təmizlənmiş və sakinləri köçürülmüş yerlərdə ictimai zonalar yaradırıq, orada binalar tikilmir. Bulvar 3 kilometrdən 16 kilometrə uzadılıb, böyük bir ictimai zonadır. Böyük parklar salınıb.

**Son illərdə şəhər nəqliyyatı ilə bağlı böyük işlər görülüb. Yeni, çox komfortlu avtobuslar gətirilib və yeni avtobusların gətirilməsi nəzərdə tutulur. Bakı Nəqliyyat Agentliyi yaradılıb və bu sahədə pərakəndəliyi aradan qaldırmaq üçün struktur islahatları aparılıbdır. Bu gün Bakı Nəqliyyat Agentliyi şəhərin nəqliyyat sisteminə cavabdehlik daşıyan yeganə qurumdur. Bu agentliklə sıx əlaqədə işləyən bütün digər dövlət qurumları ona kömək göstərməlidir.**

Əlbəttə ki, iqtisadi islahatları dərinləşdirmək üçün biz sahibkarlardan böyük fəaliyyət gözləyirik. Dövlət sahibkarlığın inkişafına böyük dəstək verir. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə sahibkarlara 2,2 milyard manat güzəştli kreditlər verilmişdir. Ancaq bu kreditlər hesabına ölkəmizdə 163 min yeni iş yeri yaradılmışdır. Bu il də 170 milyon manat güzəştli şərtlərlə kreditlərin verilməsi nəzərdə tutulur. Onun böyük hissəsi artıq altı ayda verilib. Qalan hissə də veriləcəkdir.

İnfrastruktur layihələri ilə bağlı dövlət investisiya proqramında nəzərdə tutulmuş bütün vəzifələr ilin sonuna qədər icra edilməlidir. Mən elektrik enerjisi ilə bağlı vəziyyət haqqında danışmaq istərdim.

**(davamı 4-cü səhifədə)**

# Bu ilin birinci yarısında iqtisadi artıma nail olunub



"Aparılan genişmiqyaslı iqtisadi islahatlar nəticəsində bu ilin birinci yarısında ümumi daxili məhsul 1,3 faiz, qeyri-neft sektoru 2 faiz artıb, inflyasiya birrəqəmli olmaqla 3 faiz təşkil edib".

Bunu Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında çıxış edən İqtisadiyyat naziri Şahin Mustafayev bildirib.

Şahin Mustafayev qeyd edib ki, iqtisadiyyatın şaxələndirilməsində xüsusi rolu olan qeyri-neft sənayesində 8,8 faiz, kənd təsərrüfatında 7,6 faiz, informasiya və rabitə xidmətlərində 4,9 faiz, ticarətdə 2,5 faiz artıma nail olunub.

Ötən altı ayda dövlət büdcəsinin gəlirləri 9,8 milyard manat, xərcləri 9,5 milyard manat olub: "Qeyri-neft sektoru üzrə dövlət büdcəsinə 4,1 milyard manat vəsait daxil olub ki, bu da 2017-ci ilin eyni dövrü ilə müqayisədə 275 milyon manat və ya 7,3 faiz çoxdur.

İqtisadiyyatın və sosial sahələrin inkişafına bütün maliyyə mənbələri hesabına 6,3 milyard manat əsas kapitala investisiya yönəldilib. Əsas kapitala yönəldilən vəsaitlər qeyri-neft sektoru üzrə 22 faiz, qeyri-neft sənayesi üzrə isə 69 faiz artıb.

Əhalinin gəlirləri 9,3 faiz artmaqla inflyasiyanı 6,3 faiz üstələyib. Orta aylıq əməkhaqqı illik müqayisədə 4 faiz yüksəlib, əhalinin sosial müdafiəsinə xüsusi diqqətiniz sayəsində dövlət büdcəsindən maliyyələşdirilən təşkilatlarda çalışanların əməkhaqqı, həmçinin pensiya və müavinətlər artıb.

Bu yaxınlarda rəsmi açılışı olan "Cənub Qaz Dəhlizi" və TANAP qlobal mənada dünyanın enerji xəritəsini dəyişən strateji layihələrdir.

İlin birinci yarısında xüsusi əhəmiyyətli infrastruktur layihələrini nəzərdə tutan dövlət investisiya proqramı 47 faiz icra edilib.

Bu dövrdə ayrılmış vəsait hesabına paytaxtda və regionlarda 200 min nəfər əhalinin yaşadığı 91 yaşayış məntəqəsini əhatə edən, uzunluğu 250 kilometr olan 17 qəsəbə və kəndlərarası yollar tikilərək istifadəyə verilib.

Aqrar sektorda meliorativ infrastrukturun daha da yaxşılaşdırılması tədbirləri çərçivəsində əkinəyararlı torpaq sahələrinə suvarma suyunun çatdırılması istiqamətində görüləcək işlər dövlət investisiya proqramında nəzərdə tutulmuş vəsait hesabına davam etdirilir.

Ölkədə qazlaşdırma səviyyəsinin 95 faizə çatdırılması məqsədilə 42 rayonun 83 yaşayış məntəqəsinin qazlaşdırılması davam etdirilib, 29 yaşayış məntəqəsində işlər başa çatdırılıb.

Hesabat dövründə Mingəçevir "ASAN xidmət" Mərkəzinin açılışı olub, bu ilin sonunadək Şəki və İmişli "ASAN həyat" komplekslərinin tikintisi başa çatdırılacaqdır.

Nazir bildirib ki, uğurla həyata keçirilən sənayeləşmə siyasətinə uyğun olaraq, istehsal və emal müəssisələrinin, sənaye parkları və məhəllələrinin yaradılması davam etdirilir: "Sənaye parklarına indiyədək 2,6 milyard dollar investisiya yatırılıb, tikintidə və istehsalda 11 minə yaxın iş yeri yaradılıb.

Növbəti mərhələdə 1,1 milyard dollardan çox investisiya qoyuluşu və 7500-dək yeni iş yerinin açılması nəzərdə tutulur. Artıq Sumqayıt Kimya Sənaye Parkında 7 müəssisə fəaliyyət göstərir, 2018-ci ilin sonunadək daha 7 müəssisə istifadəyə veriləcəkdir".

"Yaşıl iqtisadiyyat"ın inkişafında xüsusi əhəmiyyətə malik Balaxanı Sənaye Parkında fəaliyyət göstərən 5 müəssisədə 400-ə yaxın işçi çalışır. İkinci mərhələdə daha 5 istehsal sahəsinin tikintisinə başlanacaqdır. Dünya Bankı ilə birgə həyata keçirilən "Bərk məişət tullantılarının vahid idarəçiliyi" layihəsi çərçivəsində Balaxanı poliqonunun müasir ekoloji-sanitar normalara uyğun bərpası başa çatdırılıb.

Pirallahı Sənaye Parkında ümumi dəyəri 100 milyon dollar olan əczaçılıq və şpris istehsalı müəssisələrinin yaradılması işləri aparılır. İlin sonuna istifadəyə veriləcək şpris zavodu daxili tələbatı ödəməklə yanaşı, ixrac imkanları da yaradacaqdır. Mingəçevir Sənaye Parkında investisiya dəyəri 85 milyon dollar olan 2 iplik fabrikində 750 nəfər işlə təmin olunub. Neftçala Sənaye Məhəlləsində 8 müəssisə artıq fəaliyyətə başlayıb, bu müəssisələr üzrə 45 milyon manatdan çox investisiya qoyulub, 500-ə yaxın yeni iş yeri yaradılıb.

Nazirin sözlərinə görə, Masallı Sənaye Məhəlləsinin tikintisi başa çatdırılıb, Hacıqabul və Sabirabad Sənaye məhəllələri ilin sonunadək istifadəyə veriləcəkdir.

Ölkədə iqtisadi fəallığın artırılması, ixracyönümlü məhsulların istehsalının dəstəklənməsi, investisiyaların cəlb edilməsinin stimullaşdırılması məqsədilə investisiya təşviqi mexanizminin tətbiqi töhfəsini verir. İndiyədək 251 sahibkarlıq subyektinə 283 investisiya təşviqi sənədi verilib ki, bu layihələrin reallaşması nəticəsində yerli istehsala 2,5 milyard manatdan artıq investisiyanın yatırılması və 19 minədək yeni iş yeri açılması imkanı yaradılıb, bundan investisiya dəyəri 1 milyard manatdan çox olan 141 müəssisə artıq fəaliyyət göstərir.

İqtisadiyyatın aparıcı sahələrindən olan aqrar sektorun innovativ inkişafını təmin etmək məqsədilə 30 rayon üzrə 192 min hektar ərazidə ümumi dəyəri 1 milyard manatdan çox olan 45 aqroparkın yaradılması üzrə işlər sürətlə davam etdirilir.

Aqroparklarda zəruri infrastrukturun yaradılmasına 207 milyon manat dövlət əsaslı vəsait qoyulub, 111 milyon manat dövlət güzəştli krediti və dəyəri 564 milyon manat olan 25 layihəyə investisiya təşviqi sənədi verilib.

İri sahibkarlar tərəfindən kiçik sahibkarlıq subyektlərinin dəstəklənməsi sahəsində təşviq işləri aparılıb və şəkər tozu istehsalının yerli xammal təminatının artırılması məqsədilə 7 min hektar sahədə şəkər çuğunduru əkini üçün illik 3 faizlə 7 milyon manat güzəştli kredit verilib, 1500 fermerlə müqavilə bağlanıb. Bu müqavilələr üzrə 3600 nəfər işlə təmin olunub.

Görülən işlərin nəticəsi olaraq, 2018-ci ilin ilk 5 ayında qeyri-neft ixracı 20 faiz, o cümlədən sənaye məhsulları 27 faiz, kənd təsərrüfatı məhsulları 22 faiz, xarici ticarət fəaliyyəti ilə məşğul olan subyektlərin sayı 34 faiz artıb, ixrac məhsullarının çeşidi genişlənib.

# Meliorasiya və su təsərrüfatı sahəsi də son 15 ildə böyük inkişaf yolu keçib



Bunu iyulun 8-də Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə deyib. Onun sözlərinə görə, bu sahəyə ayrılmış əsaslı kapital qoyuluşu dəfələrlə artıb, onun maddi-texniki bazası xeyli yaxşılaşdırılıb, minlərlə kilometr suvarma kanallarının və kollektor-drenaj şəbəkələrinin bərpası, yenidən qurulması və tikintisi, 2 minə yaxın subartezian quyusunun qazılması hesabına su təminatı və meliorativ vəziyyəti yaxşılaşdırılmış torpaq sahələri xeyli artıb, yeni suvarılan torpaqlar kənd təsərrüfatı dövriyyəsinə cəlb edilib, sel və daşqınlara qarşı Kür, Araz və dağ çaylarında 1000 kilometrdən artıq sahilbərkitmə və bəndlərin möhkəmləndirilməsi işləri həyata keçirilib. Bu nailiyyətlərin əldə olunmasında Taxtakörpü və Şəmkirçay kimi iri su anbarları mühüm rol oynayıb. Bu günə qədər bu anbarlara 3 milyard kubmetrə yaxın toplanmış su müxtəlif məqsədlər üçün istifadəçilərə verilib.

Sədrin sözlərinə görə, Taxtakörpü su anbarı zonasında Xızı, Siyəzən və Şabran rayonlarında ötən illərdə suvarma suyu ilə təmin edilmiş 22 min hektar yeni suvarılacaq torpaqlar hazırda aqroparklar və iri təsərrüfatlar tərəfindən əkin dövriyyəsinə cəlb edilir. Cari ildə isə Şabran rayonunda 12 min hektar torpaq sahəsində meliorativ işlər başa çatdırılacaqdır. Hazırda "Şabran Aqropark"a məxsus 1738 hektar torpaq sahəsinin meliorativ vəziyyəti yaxşılaşdırılıb, Xızı rayonunda isə 436 hektar sahədə salınmış zeytun və badam bağları suvarma suyu ilə təmin edilib.

Şəmkirçay su anbarı zonasında isə Şəmkir-Samux-Goranboy magistral suvarma kanalının ikinci növbəsinin İpək Yolu ilə kəsişməsində keçid qurğusunun və kanalın 5 kilometrlik hissəsinin, eləcə də Goranboy və Samux rayonlarının ərazilərində yaradılmış aqroparklara məxsus torpaq sahələrinə suvarma suyunun verilməsi üçün boru kəmərinin və su hovuzunun tikintisi cari ildə başa çatdırılıb.

Ə.Əhmədzadə demişdir ki, Dünya Bankının krediti ilə respublikanın 5 rayonunda içməli su təchizatı və kanalizasiya sistemləri infrastrukturunun bərpası və tikintisi işləri davam etdirilib. Cari ilin sonuna bu işlərin tamamlanması nəzərdə tutulur.

# Çovdar qızıl mədəninin istismara verilməsi ölkə iqtisadiyyatına 300 milyon manata yaxın gəlir gətirəcək



Bunu "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin sədri Zakir İbrahimov iyulun 8-də Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında çıxışı zamanı deyib.

Z.İbrahimov bildirib ki, 2015-ci il 11 fevral tarixi Azərbaycanın əlvan metal sənayesi üçün dönüş nöqtəsi olub. Prezident İlham Əliyevin məhz həmin tarixli sərəncamı ilə əlvan metal filizi yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, işlənilməsi və idarə olunması, bu sahədə yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın müasirləşdirilməsi və ondan səmərəli istifadənin təmin olunması, habelə bu sahənin beynəlxalq standartlara uyğun, tam şəffaf və müasir şəkildə inkişafı məqsədilə "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti təsis edildi. 2016-cı ilin ikinci yarısında Cəmiyyət fəaliyyətə başladı və qısa müddət ərzində korporativ strukturu, maddi-texniki bazanı və işçi heyətini formalaşdırdı.

QSC sədri bildirib ki, Qaradağ, Çovdar, Göydağ, Dağkəsəmən filiz sahələri, Köhnəmədən sahəsi və Kürəkçay hövzəsinə dair iştirak payları "AzerGold" tərəfindən yerli banklardan cəlb edilmiş kredit vəsaiti hesabına alınıb və hazırda bu kredit öhdəliyi Cəmiyyət tərəfindən uğurla təşkil edilmiş qiymətlilərin satışından gələn daxilolmalar hesabına təmin olunur. "AzerGold" QSC-nin ilk hədəfi Daşkəsəndə yerləşən Çovdar qızıl mədəninin fəaliyyətinin bərpası, yerli əhalinin işlə təmin olunması və gəlirlərin formalaşdırılması olub.

Z.İbrahimov qeyd edib ki, 2017-ci ilin aprel-dekabr ayları ərzində 60,3 min unsiya qızıl, 86,4 min unsiya gümüşün ixracı və beynəlxalq bazarlarda satışından 131,5 milyon manat, 2018-ci ilin birinci yarısında 20,7 min unsiya qızıl, 28,2 min unsiya gümüşün ixracı və beynəlxalq bazarlarda satışından 47,9 milyon manat, ümumilikdə isə 81,1 min unsiya qızılın, 114,6 min unsiya gümüşün satışı nəticəsində 178 milyon manatdan çox gəlir əldə edilib. Qazanılan yüksək göstəricilər 2017-ci ildə "AzerGold" QSC-ni qeyri-neft sektorunun sənaye məhsullarının ixracında lider mövqelərə yüksəltdi. Bu gəlirlərin hesabına Cəmiyyət dövlət büdcəsindən vəsait cəlb etmədən müxtəlif təyinatlı kapital və cari xərclərin qarşılanmasını təmin edib, habelə üzərində olan bank borcunun ödəmə planını üstələməklə, ciddi azaldılmasına nail olub. Bundan əlavə, əldə edilən gəlir hesabına yeni sahələrin inkişafına yönələn ilkin investisiya qoyuluşları da həyata keçirilib.

Onun sözlərinə görə, Çovdar yatağında icra edilən və 2021-ci ildə başa çatacaq yerüstü filiz qatının istismarı dövründə ümumilikdə hasil ediləcək daha 129 min unsiya qızılın və 202 min unsiya gümüşün satışı nəticəsində ölkə iqtisadiyyatına 300 milyon manata yaxın məbləğdə gəlir gələcəyi planlaşdırılır.

# 6 ayda Azərbaycan dövlət büdcəsinin mədaxili və xərcləri açıqlanıb



2018-ci ilin altı ayında Azərbaycan dövlət büdcəsinin mədaxili 9821,6 mln. manat, xərcləri 9524,3 mln. manat olub, 297,3 mln. manat məbləğində dövlət büdcəsinin artıqlığı (profisit) yaranıb.

Maliyyə Nazirliyindən verilən məlumata görə, 2018-ci ilin altı ayında dövlət büdcəsinin mədaxili 9821,6 mln. manat icra olunub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 27,1 faiz və yaxud 2096,8 mln. manat çoxdur.

Vergilər Nazirliyi tərəfindən dövlət büdcəsinə 3382,6 mln. manat vəsait daxil olub ki, bu da 2017-ci ilin eyni dövrü ilə müqayisədə 0,9 faiz və ya 30,0 mln. manat çoxdur. Həmin vəsaitin 65,8 faizi və yaxud 2226,1 mln. manatı qeyri-neft sektorundan daxilolmaların payına düşür.

2018-ci ilin altı ayında Dövlət Gömrük Komitəsi tərəfindən dövlət büdcəsinə 1619,0 mln. manat vəsait təmin edilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 38,2 faiz və yaxud 447,8 mln. manat çoxdur. Dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların ödənişli xidmətlərindən daxilolmaları 178,9 mln. manat təşkil edib. Sair daxilolmalar üzrə büdcəyə 33,1 mln. manat vəsait daxil olub.

Azərbaycan Respublikasının Dövlət Neft Fondundan dövlət büdcəsinə 4608,0 mln. manat vəsait transfert edilib. 2018-ci ilin aprel-iyun ayları üzrə dövlət büdcəsinin mədaxil proqnozu 5258,2 mln. manat icra olunub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 1125,1 mln. manat və ya 27,2 faiz çoxdur.

2018-ci ilin altı ayında dövlət büdcəsinin xərcləri 9524,3 mln. manat icra olunub ki, bu da 2017-ci ilin eyni dövrü ilə müqayisədə 16,2 faiz və ya 1330,6 mln. manat çoxdur.

İqtisadi təsnifata uyğun olaraq, cari ilin ilk altı ayında dövlət büdcəsi xərclərinin 38,1 faizi və ya 3625,7 mln. manatı sosialyönümlü xərclərin (əməyin ödənişi fondu, təqaüd və sosial müavinətlər, dərman və ərzaq xərcləri) maliyyələşdirilməsinə yönəldilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 3,6 faiz və ya 125,7 mln. manat çoxdur.

2018-ci ilin altı ayında dövlət büdcəsi xərclərinin 4948,8 mln. manatı və ya 51,9 faizi cari xərclərə, 3596,3 mln. manatı və ya 37,8 faizi əsaslı xərclərə, 979,2 mln. manatı və ya 10,3 faizi dövlət borcuna və öhdəliklərinə xidmətlə bağlı xərclərə yönəldilib.

Cari ilin aprel-iyun ayları üzrə dövlət büdcəsinin xərcləri 5116,3 mln. manat icra olunub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisdə 835,3 mln. manat və ya 19,5 faiz çoxdur.

Cari ilin altı ayında icmal büdcənin gəlirləri isə 15 100,2 mln. manat olub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 3492,1 mln. manat və ya 30,1 faiz çoxdur. İcmal büdcənin xərcləri isə 10 843,0 mln. manat icra olunub.

# 611 sahibkara geri qaytarılan vəsaitlər hesabına 100 milyon manat güzəştli kredit verilib

Sahibkarların maliyyə resurslarına əlverişli şərtlərlə çıxışının təmin edilməsi üçün layihələrinin ümumi dəyəri 468 milyon manat olan 611 sahibkara geri qaytarılan vəsaitlər hesabına 100 milyon manat güzəştli kredit verilib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,6 dəfə çoxdur. Bu kreditlər hesabına illik müqayisədə 3 dəfə çox olmaqla 7 mindən artıq yeni iş yerinin açılması imkanı yaradılıb.

Bu barədə iqtisadiyyat naziri Şahin Mustafayev Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bildirib.

Nazir qeyd edib ki, iri sahibkarlar tərəfindən kiçik sahibkarlıq subyektlərinin dəstəklənməsinin vacibliyi barədə dövlətimizin başçısının verdiyi tapşırığa əsasən bu sahədə təşviq işləri aparılıb və şəkər tozu istehsalının yerli xammal təminatının artırılması məqsədilə 7 min hektar sahədə şəkər çuğunduru əkini üçün illik 3 faizlə 7 milyon manat güzəştli kredit verilib, 1500 fermerlə müqavilə bağlanıb. Bu müqavilələr üzrə 3600 nəfər işlə təmin olunub.

# SOCAR-a 340 milyon dollaradək vəsait ödənildi

"Azəri-Çıraq-Günəşli" (AÇG) layihəsinin podratçı tərəfləri bu il SOCAR-a 339 milyon dollar debitor borcları ödəyib.

Bu barədə SOCAR-ın 2017-ci il üzrə konsolidasiya edilmiş maliyyə hesabatında deyilir.

Bildirilir ki, hesabat tarixindən sonrakı dövr ərzində SOCAR və onun törəmə müəssisələri AÇG-nin podratçı tərəflərindən 578 milyon manat (339 milyon ABŞ dolları) qəbul edib.



(əvvəli 2-ci səhifədə)

Bildiyiniz kimi, bu sahəyə son illərdə çox böyük diqqət göstərilmişdir. Son 15 il ərzində 2500 meqavat gücündə yeni generasiya gücləri yaradılmışdır. Əgər bu generasiya gücləri yaradılmasaydı biz bir neçə gün bundan əvvəl baş vermiş qəzadan belə çıxa bilməzdik. Daha çox vaxt aparacaqdı. Demək olar ki, 2003-cü ildə bizim enerji təsərrüfatımız tam köhnəlmişdi. Ancaq yeni elektrik stansiyalarının yaradılması və mövcud stansiyaların təmiri ilə bağlı atılan addımlar imkan verdi ki, biz enerji çatışmazlığını aradan götürdük. **Çünki biz o vaxt xaricdən elektrik enerjisi alırdıq. Çox böyük investisiyalar qoyuldu, bir çox müasir stansiyalar tikildi. Mövcud stansiyalar, o cümlədən Mingəçevir İstilik Elektrik Stansiyasında bəzi təmir işlər aparılmışdır. Ancaq buna baxmayaraq, baş vermiş qəza, əlbəttə, onu göstərir ki, bizim enerji təsərrüfatımızda çox böyük problemlər, qüsurlar var. Bir daha demək istəyirəm ki, bir qəzaya görə bütün enerji sistemi çökməməlidir. Qəza ola bilər, qəzanın müxtəlif səbəbləri ola bilər. Hətta ən inkişaf etmiş ölkələrdə, şəhərlərdə belə qəzalar baş verir, böyük fəsadlara, insan itkisinə gətirib çıxarır. Ancaq bir lokal qəza ümumi sistemin çökməsinə gətirib çıxarmamalıdır. Bunun heç cür izahatı ola bilməz.** Mən heç bir izahatı da qəbul etmirəm. Bu gün işləyən komissiya yaxın gələcəkdə öz rəyini verəcək. Eyni zamanda, Mingəçevirə ekspertlər qrupu ezam edilmişdir. Onlar da öz sözünü deyəcəklər. Biz qəzanın səbəblərini əlbəttə ki, tam dəqiqliyi ilə bilməliyik. Nə üçün bu qəza bütün enerji sistemimizi belə vəziyyətə qoyub?! Biz bunun cavabını alacağıq. Ancaq ilkin məlumata görə, bunun səbəbi ondan ibarətdir ki, - mən, əlbəttə, komissiyanın rəyini qabaqlamaq, məhz buna görə bu məsələ ilə bağlı öz fikrimi bildirmək istəmirəm, - hətta son illər ərzində istifadəyə verilmiş stansiyalar da tam gücü ilə işləmir. Bunun səbəbi araşdırılmalıdır. Çox güman ki, bunların istismar dövründə səhvlər buraxılıb. Bütün işlərdə biz ədalətli olmalıyıq. Kimisə cəzalandıranda, kiməsə təşəkkür edəndə ədalət, dəqiq informasiya, təhlil olmalıdır. Ancaq əlbəttə ki, bu qəza çox ciddi bir siqnaldır. Hazırda enerji sistemimizdə struktur islahatları ilə bağlı işlər aparılır. Belə göstəriş verilibdir. Bütün enerji təsərrüfatımızın təftişi məsələsi öz həllini tapır. Komissiyada bu məsələ müzakirə ediləcək, mənə təkliflər veriləcək. Biz Azərbaycanın enerji sistemini ən müasir əsaslarla idarə etməliyik. Kifayət qədər enerji generasiya gücümüz var. Yarımstansiyalar tikilib və yenə də tikiləcək.

Artıq göstəriş verilib, həm Bakıda, həm bölgələrdə bu il və gələn il yeni yarımstansiyaların tikintisi təmin ediləcək. Vaxtilə, sovet dönəmində tikilmiş enerji təsərrüfatının müasirləşdirilməsi üçün əlavə vəsait ayrılır. Biz vəsaiti ayırırıq, amma əsas məsələ ondadır ki, bu vəsaitdən səmərəli şəkildə istifadə edilsin və elə bir sistem qurulsun ki, enerji dayanıqlılığı təmin olunsun.

Digər infrastruktur layihələrinə gəldikdə, deyə bilərəm ki, ilin əvvəlində qarşıya vəzifə qoymuşduq ki, qazlaşdırma bu ilin sonuna qədər 95 faizə çatacaq, biz buna nail olacağıq. İçməli su layihələrinin icrası, avtomobil yollarının tikintisi davam edir. Bu il plana görə 2 min kilometr yeni avtomobil yolu salınmalıdır və minimum 600 kənd yeni yollarla təmin edilməlidir.

Suvarma ilə bağlı qarşımıza qoyduğumuz rəqəm hesab edirəm ki, təmin olunacaq, 100 min hektar yeni torpaqlara su veriləcək və 300 subartezian quyusunun qazılması nəzərdə tutulur. Burada artıq de-



yildi ki, onlardan 175-i qazılıb istifadəyə verilib.

Sosial infrastrukturla bağlı bütün işlər plan üzrə gedir. Bu il 137 modul tipli məktəb tikilib istifadəyə verilməlidir. Bakı şəhərində 12 məktəb əsaslı təmir edilməlidir. Altı xəstəxana istifadəyə verilməlidir. Onlardan biri Naftalan şəhərində mənim iştirakımla açıldı və beş şəhərdə - Qazax, Qobustan, Şəmkir, Quba, Goranboy şəhərlərində xəstəxanalar bu ilin sonuna qədər, ya da uzaqbaşı gələn ilin əvvəlində istifadəyə veriləcək.

Bu il iki Olimpiya İdman Mərkəzi açılmalıdır, ikisində isə tikinti işləri gedir. Dörd min məcburi köçkün ailəsi yeni evlərlə təmin edilməlidir. Artıq Qobuda özəl sektor tərəfindən mindən çox ailə üçün böyük şəhərcik açıldı. İnvestisiya təşviqi mexanizmi işə düşüb, bunun çox böyük əhəmiyyəti var. Təsəvvür edin, əgər biz bu sistemi tətbiq etməsəydik 2,5 milyard manat sərmayəni özəl sektor qeyri-neft sektoruna qoymazdı.

Sənayenin inkişafı ilə bağlı yaxın gələcəkdə iki böyük zavod işə düşəcək. Hər iki zavod Sumqayıtda yerləşir - polimer zavodu və azot gübrələri zavodu. Bu zavodlar həm daxili bazarı tam təmin edəcək, idxaldan asılılıq aradan qaldırılacaq və böyük ixrac imkanımız yaranacaqdır.

**Sənaye parklarında rezidentlərin sayı 50-yə yaxınlaşır. Sənaye parklarının yaradılması da öz səmərəliliyini göstərmişdir. Əgər biz bu parkları yaratmasaydıq, orada investorlara yaxşı güzəştli şərtlər yaratmasaydıq, indi 50-yə yaxın rezident olmazdı. Bu gün bu parklarda icra edilmiş və icra ediləcək layihələrin ümumi dəyəri 3,6 milyard dollardır. Bax, investisiya təşviqi sənədi 2,5 milyard manat sərmayə gətirir, sənaye parklarına isə 3,6 milyard dollar sərmayə qoyuluşu nəzərdə tutulur. Ondan 2,6 milyard dolları artıq qoyulub. Əlbəttə ki, Azərbaycanda avtomobil istehsalı başlayıb. Neftçalada ildə 10 min minik avtomobili istehsal ediləcək. Biz Gəncə avtomobil zavodunda 10 mininci traktorun istifadəyə verilməsini qeyd etmişik. Yəni, əminəm ki, sənaye parklarının fəaliyyəti uğurlu olacaq.**

Kənd təsərrüfatı ilə bağlı qarşıda duran əsas vəzifələr bu sahədə ən müasir standartları tətbiq etməkdir. Son illərdə kənd təsərrüfatının inkişafına böyük diqqət göstərilmişdir. Demək olar ki, biz texnika parkımızı tamamilə yeniləmişik. Kənd təsərrüfatı texnikasının alınması bundan sonra da davam etdiriləcək, ancaq onun əsas hissəsi həll olunub.

Bir daha demək istəyirəm ki, kənd təsərrüfatı qarşısında duran əsas vəzifə bu sahəni yüksək texnoloji sahəyə çevirməkdir.

Aqroparkların yaradılması ilə bağlı burada məruzədə məlumat verildi. Qeyd etməliyəm ki, doğrudan da böyük fermer təsərrüfatlarının qurulması bu sahədə dönüş yaratdı. Bu yaxınlarda mənə aqroparkların fəaliyyəti ilə bağlı geniş məruzə edildi. Dörd aqropark fəaliyyətdədir. Dördündə də mən açılışda olmuşam. On dörd aqropark isə bu ilin sonuna qədər istifadəyə veriləcək. Bitkiçiliklə məşğul olan bu aqroparklarda məhsuldarlıq ən yüksək səviyyədədir - taxılçılıqda minimum 50 sentnerdir. Orta göstərici isə, - bu gün hələ biçin gedir, - hələlik 30 sentnerdir. Bu da əvvəlki dövrə nisbətən məqbul rəqəmdir. Ancaq Azərbaycanda orta məhsuldarlıq da ən yüksək səviyyədə olmalıdır. Dövlət aqroparkların yaradılmasına çox böyük dəstək göstərir. Dövlət ancaq infrastruktur layihələrinə 200 milyon manatdan çox investisiya qoyub, sahibkarlara 100 milyon manatdan çox güzəştli şərtlərlə kreditlər verib. Ölkə üzrə 45 aqroparkın yaradılması nəzərdə tutulur. Bu aqroparklara təqribən 1-1,5 milyard manat sərmayə qoyulacaq.

Bu yaxınlarda Qida Təhlükəsizliyi Agentliyi yaradıldı. Agentliyin qarşısında çox ciddi vəzifələr qoyuldu. Qida təhlükəsizliyi bu gün çox önəmli sahədir. Həm Azərbaycana gətirilən ərzaq məhsulları standartlara tam uyğun olmalıdır, eyni zamanda, Azərbaycanda istehsal edilən məhsullar beynəlxalq standartlara uyğun olmalıdır. İxrac edəcəyimiz məhsullar da elə səviyyədə olmalıdır ki, ixracla bağlı problem olmasın. Bunun üçün Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyəti çox yüksək səviyyədə təşkil edilməlidir.

Bildiyiniz kimi, turizm sektorunun inkişafı prioritetlər sırasındadır. Mənim qərarımla Dövlət Turizm Agentliyi yaradıldı. Məhz o məqsədlə ki, bu sahəyə daha böyük dövlət dəstəyi göstərilsin. Son illərdə turistlərin sayının artması çox müsbət haldır. Deyə bilərəm ki, turistlərin sayı 2016-cı ildə 22 faiz, 2017-ci ildə 20 faiz, bu ilin 6 ayında isə 10 faiz artdı. Mən bunu demişəm, bir daha demək istəyirəm ki, turizm ixrac sahəsidir. Çünki bu, ölkəmizə valyuta gətirir. Bu ilin 6 ayında xarici vətəndaşlar Azərbaycanda ancaq bank kartları ilə 513 milyon manat pul xərcləmişlər. Bu, ancaq bank kartları ilə xərclənən pullardır və keçən illə müqayisədə 21 faiz çoxdur. Bu pullar xidmət sektoruna, iş yerlərinin yaradılmasına, ictimai obyektlərin fəaliyyətinə, ölkəmizin iqtisadiyyatına gedir və bizim makroiqtisadi sabitliyimizə müsbət təsir göstərir.

Bu il üç "ASAN xidmət" mərkəzinin açılışı nəzərdə tutulur. Onlardan biri - Mingəçevir "ASAN xidmət" mərkəzi mənim iştirakımla açıldı. İmişli və Şəki şəhərlərində bu il iki mərkəz istifadəyə veriləcək. Beş rayonda yeni mərkəzlərin tikintisi haqqında göstərişlər verilmişdir.

Görülmüş işlər arasında böyük əhəmiyyət daşıyan dəmir yolu layihələridir. Keçən il Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi ilə biz demək olar ki, Şərq-Qərb dəhlizini işə saldıq. Ələt limanının fəaliyyətə başlaması demək olar ki, bu zənciri belə tamamladı. İndi biz digər layihələr üzərində işləyirik. Bakı-Yalama dəmir yolunun modernləşdirilməsi layihəsi icra edilir. Gələn ildən başlayaraq biz Bakı-Astara yolunun modernləşməsinə də başlamalıyıq. Beləliklə, biz Şimal-Cənub nəqliyyat dəhlizini daha da sürətləndirəcəyik.

Bakı-Qəbələ dəmir yolunun tikintisi layihəsi icra edilir. Bu da turizmin inkişafına böyük dəstək olacaqdır. Bakı-Gəncə sürət qatarının xəttə buraxılması ilin sonuna qədər nəzərdə tutulur. Şəhərətrafı dəmir yolunun tikintisi layihəsi uğurla icra edilir.

Bu il neft-qaz sahəsində görülmüş işlər tarixi əhəmiyyət daşıyır. Həm Cənub Qaz Dəhlizinin, həm TANAP layihəsinin istifadəyə verilməsi tarixi hadisələrdir. Bunlar dünyada da çox böyük əks-səda yaradan layihələrdir. Deyə bilərəm ki, TANAP layihəsi əvvəlcə nəzərdə tutulmuş, qoyulan sərmayədən daha ucuz başa gəldi. Biz TANAP layihəsinə başlayanda onun maliyyəsi 11 milyard dollardan çox səviyyəsində nəzərdə tutulmuşdu. TANAP layihəsi 8 milyard dollara başa gəlib. Yəni, bu, onu göstərir ki, Azərbaycan bu işlərə gör nə qədər məsuliyyətli yanaşır. Biz hər bir dollara, hər bir qəpiyə nəzarət edirik ki, bu böyük layihəni az xərclə icra edək. Görün biz burada nə qədər qənaət etdik.

SOCAR bu yaxınlarda yeni kontraktlar imzaladı. Yeni kontraktların imzalanması nəzərdə tutulur. Biz 1994-cü ildə "Əsrin kontraktı"-nı imzalayanda heç bir ixrac kəmərimiz yox idi. Bakı-Novorossiysk kəməri də sıradan çıxmışdı. Çox böyük vəsait qoyulmuşdur. Bu gün bizim Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP kimi layihələrimiz var. TAP layihəsi icra edilir. Əlbəttə, bütün bu infrastrukturu biz yaratmışıq. Əlbəttə, xarici şirkətlər Azərbaycanda bu sahəyə daha böyük maraqla vəsait qoyacaqlar və qoyurlar.

Hesab edirəm ki, neft-qaz sahəsində görülmüş bütün işlər ən yüksək qiymətə layiqdir. Bu sahənin bu ilin sonuna qədər inkişafı ilə bağlı mənim hər hansı bir xüsusi tapşırığım yoxdur.

İclasın sonunda bir daha Davos Dünya İqtisadi Forumunun hesablamalarını Azərbaycan ictimaiyyətinin diqqətinə çatdırmaq istərdim. Son hesablamalara görə, Azərbaycan dünya miqyasında rəqabətqabiliyyətliliyinə görə 35-ci yerdədir. Yol infrastrukturunun inkişafına görə 36-cı yerdədir. İnkişaf edən ölkələr arasında inklüziv inkişaf indeksinə görə 3-cü yerdədir. Ümumi infrastrukturun inkişafına görə dünya miqyasında 26-cı yerdədir. Xalqın iqtidara dəstəyinə görə dünya miqyasında 20-ci yerdədir. Bax, bu rəqəmlər əyani şəkildə göstərir ki, Azərbaycan hansı böyük uğurlara imza atıb. Bu, əyani şəkildə göstərir ki, bizim siyasətimiz xalq tərəfindən dəstəklənir və biz elə etməliyik ki, ölkəmizin inkişafını dayanıqlı və daimi edək.

# Bakıda «İdarə və optimallaşdırmanın sənaye tətbiqləri» beynəlxalq konfransı keçirilir

İyulun 11-də Bakıda "İdarə və optimallaşdırmanın sənaye tətbiqləri" mövzusunda VI Beynəlxalq konfrans işinə başlayıb.

Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə tədbirin əhəmiyyətindən danışaraq bildirib ki, qeyri-neft sektorunun əsas istiqamətlərindən biri informasiya-kommunikasiya texnologiyaları sektorudur. Ölkəmizdə davamlı inkişafı təmin etmək üçün informasiya-kommunikasiya texnologiyaları, yüksək texnologiya sahəsi sürətlə inkişaf edir. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi elmin inkişafına hər zaman öz dəstəyini göstərir. Həmtəsisçisi Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi olan "Tətbiq və hesablama riyaziyyat" jurnalı dünyanın 152 nəşri arasında 19-cu yeri tutur.

Bakı Dövlət Universitetinin rektoru Abel Məhərrəmov ölkəmizdə elmin, təhsilin inkişafına göstərilən dövlət qayğısından danışıb.

Tətbiqi Riyaziyyat İnstitutunun rektoru Fikrət Əliyev qeyd edib ki, "İdarə və optimallaşdırmanın sənaye tətbiqləri" mövzusunda konfrans 2005-ci ildən keçirilir. Konfransın məqsədi "Tətbiq və hesablama riyaziyyat" jurnalının dünya miqyasında tanıdılmasıdır. Bu konfransa 25 ölkədən 250 iştirakçı qatılıb.

# BTC kəməri ilə nəql edilən neftin həcmi 400 mln. tona çatıb

"BTC boru kəməri ilə nəql olunan xam neftin ümumi həcmi iyulun 10-da 400 milyon tona çatıb. Bütün bu həcmlər ümumilikdə 3 min 924 tankerə yüklənərək, Ceyhan terminalından təhlükəsiz şəkildə dünya bazarına yola salınıb", - deyə BP şirkətinin Bakı ofisinin mətbuat xidmətinin rəhbəri T.Bayatlı bildirib.

Qeyd edək ki, istismara verildiyi 2006-cı ildə BTC ilə 57 milyon 78 min barrel neft nəql olunub. 2010-cu ildə kəmərlə illik nəqletmə ən yüksək göstəriciyə - 286 milyon 214 min barrelə çatıb. 2017-ci ildə Bakı–Tbilisi–Ceyhan boru kəməri vasitəsilə təqribən 34 milyon ton, yəni 256 milyon barrel xam neft ixrac edilib və həmin neft Ceyhan limanında 333 tankerə yüklənib. Cari ilin ilk 3 ayında isə BTC ilə təqribən 63 milyon ton və ya 8,3 milyon barrel xam neft ixrac olunub və həmin neft Ceyhan limanında 81 tankerə yüklənib. 2006-cı ilin iyunundan cari ilin birinci rübünün sonunadək BTC ilə ümumilikdə 391 milyon tondan çox, təxminən




2,93 milyard barrel xam neft nəql edilib və Ceyhan limanında 3 min 839 tankerə yüklənərək dünya bazarına göndərilib. Hazırda BTC boru kəməri Azərbaycandan, əsasən, "Azəri-Çıraq-Günəşli" (AÇG) nefti və "Şahdəniz" kondensatı daşıyır. Bundan əlavə, boru kəməri vasitəsilə digər xam neft və kondensat həcmləri, o cümlədən Türkmənistan, Rusiya və Qazaxıstan nefti nəql olunur. Bu ilin birinci rübündə BTC üzrə əməliyyat xərclərinə təqribən 30 milyon dollar, əsaslı xərclərə isə 5 milyon dollar sərf edilib.

2003-cü il iyulun 30-da BTC-nin inşasına başlanılıb. 2006-cı il iyulun 13-də isə Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi keçirilib.

Boru kəmərinin ümumi uzunluğu 1768 kilometrdir. Respublikamızın 13 rayonundan - Qaradağ, Abşeron, Hacıqabul, Ağsu, Kürdəmir, Ucar, Ağdaş, Yevlax, Goranboy, Samux, Şəmkir, Tovuz və Ağstafadan keçən kəmərin Azərbaycan hissəsinin uzunluğu 443 kilometrdir. Qalan 249 kilometr Gürcüstanın, 1076 kilometr isə Türkiyənin ərazisindən keçir. Boru kəmərinin Azərbaycan və Gürcüstanda yerləşən hissələrinin operatoru "BTC Ko."nun səhmdarları adından BP, Türkiyədə yerləşən hissəsinin operatoru isə "Botaş International Limited" şirkətləridir. Kəmərin diametri Azərbaycanda və Türkiyədə, əsasən 42 düyümlükdür. Gürcüstan ərazisində kəmər 46 düyümlük borularla çəkilib. Türkiyədə Ceyhan dəniz terminalına enən sonuncu eniş boyu hissədə isə 34 düyümlüyədək azalır. Boru kəməri 1500-dən çox çay və 13 seysmik qırılma xətti ilə kəsişir. Kəmərin ən yüksək nöqtəsi 2 min 800 metr olan dağlardan keçdiyi yerdir ki, bundan sonra o, Ceyhanda yenidən dəniz səviyyəsinə enir.

Kəmərin istismar müddəti 40 il, orta ötürücülük qabiliyyəti isə sutkada 1,2 milyon barrel nəzərdə tutulub. Səngəçal terminalından Türkiyənin Aralıq dənizi sahilindəki Ceyhan terminalınadək uzanan kəmərin çəkilməsinə təxminən 4,5 milyard dollar vəsait xərclənib. Hazırda kəmər vasitəsilə ildə 60 milyon ton neft nəql etmək mümkündür.

"BTC Ko."nun səhmdarları belədir: BP (30,1 faiz), "AzBTC" (25 faiz), "Chevron" (8,9 faiz), "Equinor" (əvvəlki "Statoil") (8,71 faiz), TPAO (6,53 faiz), "Eni" (5 faiz), "Total" (5 faiz), "Itochu" (3,4 faiz), "Inpex" (2,5 faiz), "ExxonMobil" (2,5 faiz) və "ONGC (BTC) Limited" (2,36 faiz).

# Baş Prokurorluq, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidmətinin Gəncə hadisələri ilə bağlı məlumatı

İyulun 10-da Gəncə şəhərində ictimai asayişi pozmağa cəhd göstərmiş radikal dini yönümlü bir qrup şəxsin xidməti vəzifələrini yerinə yetirən polis əməkdaşlarına küt və kəsici-deşici alətlərlə hücum etməsi nəticəsində 2 polis zabiti şəhid olub. Davam etdirilən əməliyyat-axtarış tədbirləri ilə həmin qanlı cinayəti törətməkdə şübhəli bilinən iki nəfərin şəxsiyyəti müəyyən edilib və onların tutulması üçün intensiv iş aparılır.

# Mingəçevirdəki İstilik Elektrik Stansiyasının tam təftişi və auditi aparılmalıdır

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında ölkənin enerji sistemində vəziyyətlə əlaqədar müşavirə keçirilib.**

**Müşavirəni açan Prezident İlham ƏLİYEV demişdir:**

-Mingəçevirdəki İstilik Elektrik Stansiyasında baş vermiş qəza nəticəsində ölkəmizin enerji təchizatında ciddi problemlər yaranmışdır. Görülmüş operativ tədbirlər nəticəsində bir neçə saatdan sonra enerjinin verilməsi bərpa edilmişdir. Səhər mənim Sərəncamımla məsələni araşdırmaq üçün Dövlət Komissiyası yaradılmışdır və komissiya öz işinə başlamışdır. Komissiya qarşısında bir neçə vəzifə qoyulmuşdur. Onların arasında əsas vəzifə məsələni araşdırmaq və qəzanın səbəblərini aşkar etməkdir. Eyni zamanda, komissiya günahkarları müəyyən etməli, onlara qarşı görüləcək tədbirlər haqqında təkliflər verməlidir və gələcəkdə belə qəzaların təkrarlanmaması üçün tədbirlər planı hazırlamalıdır.

Dünən axşam saatlarında enerjinin verilməsi yenidən kəsildi. Yenə də görülmüş tədbirlər nəticəsində qısa müddət ərzində enerjinin verilməsi bərpa edildi. Qeyd etməliyəm ki, mən bütün dövlət orqanlarına ciddi tapşırıq vermişdim ki, bütün dövlət orqanlarının nümayəndələri bu vəziyyətdə vətəndaşlara kömək göstərsinlər ki, biz bu vəziyyətdən şərəflə çıxa bilək. Deyə bilərəm ki, bütün dövlət orqanları bu vəzifənin icrasında böyük peşəkarlıq göstərmişlər. Onların çox uğurlu fəaliyyəti nəticəsində bu qəza, demək olar ki, aradan qaldırıldı. Baxmayaraq ki, vətəndaşlara böyük əziyyət verildi, heç bir ağır hadisə baş verməmişdir. Fövqəladə Hallar Nazirliyi təxliyə işlərini tez və düzgün şəkildə aparmışdır. Vətəndaşlar metrodan təxliyə edildi. Liftlərdə qalmış vətəndaşlar təxliyə olundu. Xilasedicilər çox uğurla fəaliyyət göstərdilər.

Daxili işlər orqanları çox operativ şəkildə fəaliyyətə keçmişlər. İlk növbədə, asayişin qorunub saxlanması məsələləri gündəlikdə idi. Eyni zamanda, işıqforların işləməməsi nəticəsində böyük təhlükə var idi ki, şəhər nəqliyyatı idarəolunmaz vəziyyətə düşə bilərdi. Polis əməkdaşları yol kəsişmələrində uğurlu fəaliyyət göstərərək yol hərəkətini tənzimləyə bilmişlər.

Onu da qeyd etməliyəm ki, Azərbaycan vətəndaşları bu məsələ ilə bağlı böyük məsuliyyət, böyük vətəndaş həmrəyliyi göstərmişlər. Bütövlükdə Azərbaycan cəmiyyəti bu çətin sınaqdan şərəflə çıxa bilmişdir. Fürsətdən istifadə edərək, bütün Azərbaycan vətəndaşlarına göstərdikləri dəstəyə, anlayışa və vətəndaş həmrəyliyinə görə təşəkkürümü bildirmək istəyirəm. Bilirəm ki, vətəndaşlar bir-birlərinə kömək göstərmişlər. Bu, bir daha onu göstərir ki, Azərbaycan cəmiyyəti çox yetkin cəmiyyətdir və Azərbaycanda, sözün əsl mənasında, vətəndaş həmrəyliyi mövcuddur.

Nəqliyyat məsələləri tənzimləndi. Bakı Nəqliyyat Agentliyi dərhal operativ tədbirlər gördü, xətlərə yeni avtobuslar çıxarıldı, sərnişinlərə böyük diqqət və qayğı göstərildi. Bir sözlə, hesab edirəm ki, bütün dövlət qurumları bu ağır vəziyyətdə çox çevik fəaliyyət, böyük peşəkarlıq göstərmişlər və biz bu vəziyyətdən az itkilərlə çıxa bilmişik.

Ancaq iki dəfə baş vermiş qəza çox ciddi araşdırılmalıdır. Çünki son illər ərzində Azərbaycanın enerji sektoruna çox böyük investisiyalar qoyulub. Son 15 il ərzində Azərbaycanda onlarla yeni elektrik stansiyası istifadəyə verilmişdir. Son 15 il ərzində 2500 meqavat gücündə yeni elektrik stansiyaları tikilmişdir. Bizim enerji potensialımız hazırda 6400 meqavata bərabərdir. Onun 2500 meqavatı, qeyd etdiyim kimi, son 15 il ərzində yaradılıb. Ölkəmizin bütün bölgələrində yeni elektrik stansiyaları tikilmişdir - Bakı, Sumqayıt, Şirvan şəhərlərində, Astara, Xaçmaz, Şəki, Quba rayonlarında. Eyni zamanda, bölgələrdə su elektrik stansiyaları yaradılmışdır. Yəni, bu stansiyaların coğrafiyası onu göstərir ki, biz çalışırdıq ölkəmizin bütün bölgələrində yeni stansiyalar tikilsin ki, enerji sisteminin dayanıqlılığı təmin edilsin. Ancaq bir qəza nəticəsində demək olar ki, bütün enerji sistemi sıradan çıxdı. Bu məsələ çox ciddi suallar yaradır. Bu məsələ çox ciddi araşdırılmalıdır. Bu qəza nəticəsində bu isti havada insanlara böyük əziyyət verildi, iqtisadiyyata böyük ziyan vuruldu. Düzdür, həm birinci, həm ikinci dəfə operativ tədbirlər nəticəsində enerjinin verilməsi bir neçə saat ərzində bərpa edildi. Ancaq bu qəzalar baş verməməli idi. Əgər baş versəydi belə, fəsadlara gətirib çıxarmamalı idi. İndi qəzalar olur, həm bu sahədə, həm başqa sahələrdə. Dünyanın hər bir ölkəsində heç kim qəzadan sığortalı deyil. Ancaq qəza lokal xarakter daşımalıdır. Bir stansiyada baş vermiş qəza bütün enerji sistemimizə çox böyük zərbə vurdu. Ona görə, çox ciddi araşdırmalar aparılmalıdır, günahkarlar məsuliyyətə cəlb edilməlidir. Bir daha qeyd etmək istəyirəm, elə bir tədbirlər planı hazırlanmalıdır ki, gələcəkdə biz bu qəzalardan və qəzaların törədə biləcəyi fəsadlardan özümüzü qoruya bilək.

* * * * *

**Baş nazirin birinci müavini, komissiyanın sədri Yaqub EYYUBOV çıxış edərək dedi:**

-Məruzə edirəm ki, Mingəçevirdə yerləşən "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinə məxsus "Azərbaycan İstilik Elektrik Stansiyası" Məhdud Məsuliyyətli Cəmiyyətinin yarımstansiyalarının birində baş vermiş qəza ilə bağlı Sizin tapşırığınıza uyğun olaraq "Azərenerji"nin prezidenti Etibar Pirverdiyevlə iyulun 3-də səhər saat 8-də Mingəçevir şəhərinə gedərək hadisə yerində birlikdə baxış keçirdik. Baxış zamanı müəyyən olundu ki, iyulun 3-də saat 10:17 radələrində "Azərbaycan İstilik Elektrik Stansiyası"nın 330 kilovoltluq yarımstansiyasında cərəyan transformatorunda qəza nəticəsində orada olan təxminən min kiloqrama qədər yağ ətrafa axmış, yaxınlıqdan keçən elektrotexniki avadanlıqların, eləcə də kabellərin, əsasən də informasiya və avtomatika kabellərinin üzərinə dağılaraq yanğına səbəb olmuşdur. Qeyd olunmalıdır ki, həmin kabellərin uzun illərdir istismar edilməsi yanğının intensivliyini bir qədər də artırmışdır. Eyni zamanda, qeyd edilməlidir ki, qəza baş verən vaxtda bu yarımstansiyaya xidmət edən stansiyanın 6-cı blokunda iş dayanmış, lakin ona verilən qaz dayandırılmadığından burada da yanğın baş vermişdir. Hər iki yanğın söndürülmüşdür. Bütün bunların nəticəsində işlək vəziyyətdəki enerji blokları və hava xətlərində qəza açılışları olmuş, stansiyada gərginlik tam itmiş və respublikanın elektrik enerjisinin əsas ötürücülərindən olan birinci "Abşeron" elektrik hava xətti ilə elektrik cərəyanı verilişi tam dayanmış, stansiyanın avtomatika və idarəetmə sistemi pozulmuşdur. Bununla əlaqədar Bakı və Gəncə şəhərləri də daxil olmaqla respublikanın rayonlarının elektrik enerjisi təminatında fasilə yaranmışdır.

Cənab Prezident, yaranmış vəziyyət ilkin təhlil edildikdən sonra baş vermiş qəza ilə bağlı iyulun 3-də Sizin tapşırığınızla Sərəncamınızla yaradılmış Dövlət Komissiyasının ilk iclası keçirilmişdir. İclasda qəzanın səbəbləri, nəticələrinin aradan qaldırılması ilə bağlı tədbirlər müzakirə olunmuş və bununla əlaqədar müvafiq vəzifələr müəyyən edilmişdir. İclasın sonunda - saat 19:00 radələrində enerji sistemində yenidən açılmalarla bağlı məlumat daxil olmuşdur. Yaranmış vəziyyətlə bağlı "Azərenerji" ASC-nin baş dispetçer məntəqəsinə gedərək enerji sisteminin yenidən dayanması səbəblərini araşdırmağa çalışmışıq. Dispetçerlər burada problemin aradan qaldırılması ilə məşğul olmuş və elektrik enerjisinin verilişi bərpa edildikdən sonra Sizin tapşırığınızla, ilk növbədə, xüsusi həyati əhəmiyyətli obyektlərə - xəstəxanalara, metroya, hava limanına, Neft Şirkətinə, "Gəncə Det. Al" alüminium şirkətinə və digər bu kimi obyektlərə elektrik enerjisinin verilməsi təmin edilmişdir. İyulun 4-də saat 4 radələrində isə ölkə üzrə tələbata uyğun gücün əldə edilməsinə nail olunmuşdur. Rusiya və Gürcüstandan da əlavə elektrik enerjisi alınmışdır.

Qəzanın səbəblərini daha dəqiq müəyyən etmək üçün ölkənin bu sahədə aparıcı mütəxəssislərindən, o cümlədən Energetika, Fövqəladə Hallar nazirliklərinin, Azərbaycan Milli Elmlər Akademiyasının, Neft və Sənaye Universitetinin mütəxəssislərindən ibarət ekspert komissiyası yaradılmışdır. Komissiyaya rəhbərlik Azərbaycan Milli Elmlər Akademiyasının Fizika İnstitutunun direktoru Nazim Məmmədova tapşırılmışdır. Komissiya işə başlamışdır, bir həftə ərzində araşdırma qurtarandan sonra nəticələr Sizə məruzə ediləcəkdir.

Cənab Prezident, icazənizlə "Azərişıq" ASC-nin elektrik təchizat sistemində baş vermiş fasilə ilə əlaqədar bir sıra dövlət müəssisələrində yaranmış vəziyyətlə bağlı aşağıdakıları məruzə etmək istərdim. Neft Şirkəti üzrə - hadisə ilə əlaqədar neft emalı zavodunda bütün qurğular dayanmışdır. Hazırda katalitik krekinq qurğusundan başqa digər emal qurğuları iş rejimlərində çalışır. Katalitik krekinq qurğusunun regenerator blokunda yaranmış problem isə qurğunun soyudulması və daxili hissənin yoxlanılmasından sonra dəqiq müəyyənləşdiriləcəkdir. İlkin ehtimala görə, görüləcək təmir-bərpa işləri təxminən 8-10 gün çəkəcəkdir. Katalitik krekinq qurğusunun təmiri dövründə ölkənin avtomobil benzininə tələbatı zavodda mövcud olan 80 min tona qədər qalıq ehtiyat hesabına təmin ediləcəyi üçün təchizatla əlaqədar hər hansı bir problem gözlənilmir. Hadisə ilə əlaqədar neft və qazçıxarma idarələrində, birgə müəssisələrdə nəzərdə tutulandan təxminən 4,2 min ton neft, 1 milyon 135 min kubmetr qaz az hasil edilmişdir. Neft Şirkətinin bütün müəssisələrində istehsalat sahələrinin normal iş rejiminə çıxarılması prosesi həyata keçirilir.

"Azərsu" üzrə - içməli su mənbələri, su emal qurğuları, su və kanalizasiya şəbəkələri sistemlərində qəza vaxtı dayanmalar olmuşdur. Əsas qurğuların mühafizəsi tədbirləri həyata keçirilmiş, təhlükəsizlik təmin edilmiş, sıradançıxmanın və subasma hallarının qarşısı alınmışdır. Elektrik kəsilməsindən dərhal sonra su təchizatı, kanalizasiya qurğuları və şəbəkə sistemlərinin işçi vəziyyəti yoxlanılmış, sıradan çıxmış hissələrin bərpası, magistral və şəbəkə xətlərinin qəzalı hissələrinin təmiri üçün təxirəsalınmaz tədbirlər görülmüşdür. Anbarlardakı mövcud su ehtiyatlarından səmərəli istifadə olunması, həyati əhəmiyyətli obyektlərin dayanıqlı su təchizatının, eləcə də əhalinin minimum su təchizatının təmin olunması üçün 100-dən artıq sudaşıyan maşın cəlb edilmişdir. Hazırda regionların su təchizatı tam təmin edilmişdir, Bakı şəhərinin tələbatına uyğun olaraq şəbəkə sistemlərinin fasiləsiz su ilə təchizatı səviyyəsi 92-93 faizdir. Anbarlardakı su ehtiyatlarının həcmi isə 45-50 faizdir. Şəbəkə sistemlərinin hidravlik rejimlərinin pozulması nəticəsində baş vermiş qəzaların aradan qaldırılması, tələbata uyğun su təchizatı və su ehtiyatı iyulun 5-dək tam təmin ediləcəkdir.

"Azərişıq" ASC-nin verdiyi məlumata əsasən, hazırda respublika üzrə tələbat 3150 meqavatdır. Paylayıcı şəbəkələrə verilən güc isə 2900 meqavatdır. Təxminən 250 meqavat çatmır. Bakı şəhəri 100 faiz enerji ilə təmin edilir. Bakıətrafı qəsəbələr, Xırdalan şəhəri və rayonlar isə 85 faiz.

* * * * *

**"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Etibar PİRVERDİYEV çıxış edərək dedi:**

- İlk növbədə, Azərbaycan enerji sistemində yaranmış qəza vəziyyəti ilə əlaqədar olaraq çox dərin narahatlığımızı bildirməklə yanaşı, Sizdən və eyni zamanda, respublikamızın enerji istehlakçılarından üzr istəyirəm. Həmçinin, İstilik Elektrik Stansiyasında baş vermiş qəza ilə bağlı vəziyyəti təcili olaraq nəzarətə götürdüyünüzə görə Sizə dərin minnətdarlığımızı bildiririk.

Son 15 ildə energetika sektorunda Sizin rəhbərliyiniz ilə...

**Prezident İlham ƏLİYEV:** Onu bilirik, son 15 il ərzində nələr görülüb. Sən de görək qəzanın səbəbləri nədir və nə üçün ölkəni qaranlıq bürümüşdü? Səbəblər nədir?

**Etibar Pirverdiyev:** İyulun 3-də və ondan əvvəlki vəziyyətlə bağlı məlumatı təqdim etmək istərdim. İyun ayının gündəlik elektrik istehsalını götürdükdə, ayın əvvəlində biz görürük ki, gündəlik istehlaka 50-55 milyon kVt/saat arasında enerji verilmişdir. Son bir həftə ərzində isə bu rəqəm 70-75 milyona qalxmışdır. Təxminən 40 faiz birdən-birə...

**Prezident İlham ƏLİYEV:** Bu, qəzanın səbəbi ola bilməz. Bəziləri bunu isti hava ilə bağlayırlar. Bizdən də daha isti ölkələr var. Orada belə qəzalar baş vermir. Baş verəndə ölkələrin enerji sistemi çökmür. Yenə də deyirəm, qəza baş verə bilər. Qəzanın fəsadlarının aradan qaldırılması işləri də aparılmalıdır və aparılır. Ancaq bir qəzaya görə bütün ölkənin enerji sisteminin çökməsi - bu, yumşaq desək, böyük səhvdir. Bizim indi kifayət qədər enerji gücümüz var. Mən giriş sözümdə bunu qeyd etdim. Təkcə 15 il ərzində 2500 meqavat gücündə elektrik stansiyaları yaradılmışdır. Biz indi xarici ölkələrə elektrik enerjisi ixrac edirik. Ona görə isti havalarla bağlı istehlakın artması qəzanın səbəbi ola bilməz. Qəzanın səbəblərini komissiya araşdıracaq. Qeyd etdiyim kimi, bu məqsədlə komissiya yaradılıb. Siz, sadəcə olaraq, utanmalısınız, xalq qarşısında, ölkə qarşısında. Bu isti havada insanlara bu qədər əziyyət vermisiniz. Metroda qalanlar, qocalar, uşaqlar, qadınlar, xəstələr, liftlərdə qalanlar. İqtisadiyyata nə qədər böyük ziyan vurmusunuz. Təkcə Neft Şirkətinin indi burada deyilən ziyanını hesablasaq, ölkəyə nə qədər böyük iqtisadi ziyan dəyib. Mən bu sahəyə bu qədər investisiya ayırmışam. Dövlət İnvestisiya Proqramında hər il bu məqsədlə böyük vəsait ayrılır. İndi yeni elektrik stansiyaları tikilir. İndi "Şimal-2" elektrik stansiyası tikilir. Son 15 il ərzində 30 stansiya tikilmişdir. Elə bir sistem qurulmalı idi ki, bir qəzaya görə ölkənin enerji sistemi çökməsin. Nə üçün Bakıda, Sumqayıtda, qeyd etdiyim kimi, bölgələrdə istifadəyə verilmiş elektrik stansiyaları o qəza baş verəndən sonra fəaliyyətini dayandırdı?! Siz bunun səbəbləri haqqında danışmalısınız. Bunun izahatını siz verməlisiniz. Yoxsa, mənə indi verilən məlumat ki, havalar isti keçir, istehlak artır, bu, məni qane edə bilməz, qətiyyən. Əyləşin.

Bir daha deyirəm, Yaqub Eyyubov, məsələni çox ciddi araşdırmaq lazımdır. Bütün komissiya üzvləri fəal işləməlidirlər. Qısa müddət ərzində həm birinci qəzanın səbəbləri, xüsusilə ikinci qəzanın səbəbləri haqqında mənə məruzə edilməlidir.

Yaqub EYYUBOV: Baş üstə.

* * * * *

**Fövqəladə hallar naziri Kəmaləddin HEYDƏROV çıxış edərək dedi:**

- Möhtərəm cənab Prezident, bildiyiniz kimi, iyulun 3-də saat 00:20 dəqiqədə...

**Prezident İlham ƏLİYEV:** Biz bunları bilirik, siz keçin mövzuya. Hansı işlər görülüb, hansı işləri görmüsünüz?

**Kəmaləddin HEYDƏROV:** İlk hadisə zamanı mən özüm də srağagün oraya getdim. Şəxsən müşahidə etdiyim o idi ki, o cərəyan açarı olan hissədə onun içərisindəki yağ dağılmış və qabağında olan kanallarda kabelləri yandırmışdır. Biz əvvəllər də "Azərenerji"yə göndərdiyimiz məktublarda qeyd etmişdik ki, bu kanalların üstü möhkəm bağlanmalı və açıq olmamalıdır, hər hansı bir qəza baş verərsə, o yağlar oraya tökülməsin. Təəssüf olsun ki, təxminən bütün 63 açarın qabağındakı kanalların hamısının üstü möhkəmləndirilməmişdir. Biz komissiyanın üzvlərinin, Baş Prokurorluğun, Daxili İşlər Nazirliyinin, yerli təhlükəsizlik orqanlarının əməkdaşları ilə birgə apardığımız müşahidəyə əsasən gəldiyimiz qənaət budur ki, doğrudan da, bizim əvvəllər göstərdiyimiz iradların heç birinə riayət olunmamışdır. Ərazi quru otlardan təmizlənməmişdir. Soyutma qurğularının heç biri, demək olar ki, işləmir. Əgər orada soyutma kanalı ilə, - düzdür, indi deyirlər ki, bu çoxdanın problemidir, - Mingəçevir gölünün dibindən alınan suyun temperaturu 12 dərəcə olmalı olduğu halda, qəza baş verən gün suyun temperaturu 28 dərəcə olmuşdur, dünən isə 26 dərəcə idi. Yəni, bu, soyutma işlərinə maneçilik törədir.

Cənab Prezident, Siz çox düzgün qeyd etdiniz ki, oradakı hər hansı bir yarımstansiyada qəza olduğu halda nəinki sistem çökməməlidir, heç o stansiyanın digər bloklarında da başqa bir şey olmamalıdır.

Elektrik xətlərində, digər yerlərdə hər hansı bir qəzanın baş verməsi bununla məşğul olan müvafiq qurumlar arasında rabitənin və operativ əlaqənin olmamasının nəticəsidir. Biz orada energetiklərlə söhbət etdik və soruşduq ki, niyə ikinci dəfə blok çökdü. Biz orada müşavirə keçirirdik və birdən-birə enerji kəsildi. Heç kim bizə məlumat verə bilmədi ki, niyə işləyən qurğu birdən-birə yatdı. Yəni, biz digər qurumlarla birgə hərə öz kanalından istifadə etdi ki, qəza hansı tərəfdən olub. Biri dedi ki, Şirvan stansiyasında yükləmə çox olub və ona görə burada açılıb. Biri dedi ki, Bakı-Abşeron xəttində gərginlik çoxaldığına görə olub. Biz illər boyu yazdığımız məsələləri dünən Baş Prokurorluğa, eyni zamanda, Daxil İşlər Nazirliyinə təqdim etdik.

Cənab Prezident, mən orada müşahidə etdiyim məsələlərdə ən əsas gördüyüm odur ki, birincisi bu stansiya fiziki və mənəvi cəhətdən köhnədir. Vəsait ayırıb onu təmir etməzdən əvvəl, əgər imkan varsa, tapşırığınıza əsasən bu sahədə beynəlxalq təcrübəsi olan qurum onu əvvəlcə audit etməlidir ki, hansı vəziyyətdədir. Ondan sonra digər şirkətlər onun necə qurulmasını və ümumiyyətlə, ölkə üzrə bu sistemin bir-birinə maneçilik törətmədən, əksinə, bir–birinə dəstək verərək işləməsi məsələsini ortaya qoymalıdır ki, nəinki hər hansı bir yarımstansiyada, hər hansı istilik elektrik və digər elektrik stansiyalarında qəza baş verdikdə ölkədə problem yaşanmasın.

**Prezident İlham ƏLİYEV:** Yaxşı, əyləşin. Bu təklifləri təqdim edərsiniz, komissiyada baxılar və komissiyanın yekun rəyində mütləq öz əksini tapmalıdır.

Kəmaləddin Heydərov: Baş üstə.

* * * * *

**Daxili işlər naziri Ramil USUBOV çıxış edərək dedi:**

- Hadisə baş verəndən sonra dərhal Sizin tapşırığınızı rəhbər tutaraq göstəriş verdim ki, biz fövqəladə hallarda hansı hərəkəti etməliyik. Daxili İşlər Nazirliyi olaraq digər qurumlarla birlikdə asayişin qorunması, təhlükəsizliyin təmin edilməsi üçün əlavə tədbirlər işlədik hazırladıq və həyata keçirməyə başladıq. Məruzə edirəm ki, təqribən 30 min nəfərin təxliyə olunmasında Fövqəladə Hallar Nazirliyi ilə birgə iştirak etdik və eyni zamanda, avtobusların vətəndaşlarımızı evlərinə aparmasında da yol polisi onları müşayiət etdi. Hərəkətin təhlükəsizliyi ilə bağlı, hörmətli cənab Prezident, Dövlət Yol Polisi ilə bərabər Post Patrul Xidmətinin 150 nəfər əməkdaşını da Bakı şəhərində bu işə cəlb etdik və normal hərəkət təmin olundu.

Bildirmək istəyirəm ki, bundan sonra dövlət əhəmiyyətli obyektlərin, diplomatik korpusların yerləşdiyi ərazilərin qorunması da tərəfimizdən gücləndirildi. Məruzə edirəm ki, elektrik enerjisinin olmaması ilə bağlı bu iki gündə elə bir ağır cinayət hadisəsi baş verməyib. Bu gün ölkəmizdə vəziyyət tam nəzarət altındadır. Bəzi təxribata çağırışlar olur, cənab Prezident, həmin adamları da biz müəyyənləşdiririk və qanun çərçivəsində onlar haqqında tədbir görülməsi davam etdirilir.

* * * * *

**Prezident İlham ƏLİYEV:** Səhiyyə naziri, xəstəxanalarda vəziyyət necə idi və bu gün necədir?

**Səhiyyə naziri Oqtay ŞİRƏLİYEV dedi:**

-Baş verən qəzadan sonra biz daim bütün regionlarla əlaqə saxlayırdıq. Siz bilirsiniz ki, demək olar, bizim bütün rayonlarda yeni xəstəxanalar tikilib və bütün müasir tibbi avadanlıqla təchiz olunub. Hər yerdə generator sistemləri quraşdırılıb. Hər yerdə generatorlar işləyirdi, tibbi xidmət göstərilirdi. Bakı şəhərində də nazirliyin əməkdaşları təhkim olunmuşdu. Bakı şəhərində də ilk növbədə, cərrahiyyə, əməliyyat blokları, reanimasiya tam tərkibdə işləyirdi. Bu iki gün ərzində məsələ ilə bağlı bir ölüm hadisəsi də olmadı. Təcili yardım tam gücü ilə işləyirdi. 2130 çağırış olub. Bunlardan 220 adam xəstəxanalara daxil olub, onlara tam həcmdə yardım göstərilib. Metronun hər stansiyasının qarşısında təcili yardım maşını təhkim olunmuşdu. Onların arasında cəmi 19 nəfər müraciət edib, o da gərginlikdən, əsəbdən. Onlara ilkin tibbi yardım göstərilib. Cəmi 6 nəfər xəstəxanalara yerləşdirilib.

* * * * *

**Prezident İlham ƏLİYEV:** "Azərsu", məruzə edin. Su təminatı ilə bağlı vəziyyət necədir?

**"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz HÜSEYNOV dedi:**

-Hadisə baş verən kimi, biz mövcud su və kanalizasiya nasosxanalarını, su mənbələrini su basmasının qarşısının alınması üçün vacib tədbirlər gördük və bu qurğuların heç birində heç bir problem olmayıb. Enerji kəsiləndən sonra mövcud vəziyyəti qiymətləndirdik. Su anbarlarındakı ehtiyatlarımız, kanalizasiya-nasos stansiyalarına aparan xətlərin təhlil imkanları olan xətlər. Həmin ərazilərə əvvəlcə ehtiyat suların qənaətlə verilməsi rejimini müəyyənləşdirdik. Harada ki nasos stansiyasına ehtiyac yoxdur, öz axınında, rejimində su verilir. Digər yerlərə suyun verilməsi üçün biz su maşınlarını işə cəlb etdik. Fövqəladə

# Mingəçevirdəki İstilik Elektrik Stansiyasının tam təftişi və auditi aparılmalıdır

Hallar Nazirliyindən, Bakı Şəhər İcra Hakimiyyətindən, rayon icra hakimiyyətlərindən, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən, öz maşınlarımızı, eyni zamanda, fərdi sahibkarlıqla məşğul olan su maşınlarını bu işlərə cəlb etdik. Rayon icra hakimiyyətləri ilə birgə biz öz axını ilə su verə bilmədiyimiz yerlərdə də əhalinin su təminatı ilə məşğul olduq. Hazırda artıq suyun mənbələrdən verilişi tam bərpa edilib. Şəhərin 92-93 faizinə su veririk. Anbarlarda ehtiyatımız 45-50 faizdir. Sabah səhər saatlarında tam rejimə çıxacağıq.

* * * * *

**Prezident İlham ƏLİYEV: "Azərişıq".** Bölgələrdə enerji təchizatı ilə bağlı vəziyyət necədir?

**"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri Balababa RZAYEV dedi:**

-Möhtərəm cənab Prezident. Hazırda Bakı şəhəri 100 faiz, Bakıətrafı ərazilər 90 faiz, regionlar isə 85-90 faiz təmin olunur. Qeyd olunan ən mühüm obyektlərlə bağlı bizim tərəfimizdən qərargah yaradıldı. Ən böyük fasilə həyati vacib obyektlərdə birinci açılmada oldu.

**Prezident İlham ƏLİYEV:** Nə qədər oldu?

**Balababa RZAYEV:** Təxminən 2 saat 40-50 dəqiqə. Dünənkində isə 30 dəqiqə. Rusiyadan alınan birinci 100 meqavat ki, bizə Abşeron xətti ilə verildi, onunla bütün xəstəxanalar, kanalizasiya və su təchizatı sistemi, bütün həyati vacib obyektlər, metro, hava limanı – bunlar hamısı təmin olundu.

* * * * *

**Prezident İlham ƏLİYEV:** Bakı Metropoliteni. Məruzə edin, vəziyyət necədir?

**"Bakı Metropoliteni" QSC-nin sədri Zaur HÜSEYNOV dedi:**

- Ayın 2-də gərginlik itəndən sonra aşağıdakı fəsadlar yarandı: hərəkətdə olan 18 sərnişin qatarı dayandı - 9-u stansiyalarda, 9-u tunellərdə. Sərnişin qatarlarının, stansiyaların və tunellərin işıqları söndü, eskalatorlar və travalatorlar, ventilyasiya şaxtaları, əsaslı, yerli və çirkab su xaric qurğularının nasosları dayandı. Təqribən saat yarımdan sonra əsaslı su xaric qurğularında suyun səviyyəsi qalxdı. Metronun "Sahil", "Nizami" və "Nəsimi" stansiyalarında səviyyə kritik həddə çatmışdı.

Aşağıdakı tədbirlər görülüb: akkumulyatorlardan qidalanan qəza işıqları qoşuldu. Tunellərdə təxliyə əməliyyatları aparmaq üçün metropoliten işçilərindən, Daxili İşlər və Fövqəladə Hallar nazirliklərinin əməkdaşlarından ibarət qruplar təlimatlandırılaraq tunellərə göndərildi. Birinci gün stansiyalarda və tunellərdə dayanan qatarlardan sərnişinlər təxliyə olundu. Ümumilikdə 154 nəfər sərnişin çıxarıldı. Xəsarət alan olmadı. Vəziyyətdən çıxmaq üçün "Nizami" və "Nəsimi" stansiyalarındakı su xaric qurğularından su öz axını ilə nisbətən az debiti olan su xaric qurğularına istiqamətləndirildi. Saat 14:10-da yüksək gərginlik verildikdən sonra xətlərdəki qatarlar depoya çıxarıldı. Saat 5:25-də isə təsdiq olunmuş qrafik üzrə qatarlar normal hərəkətə başladı. Ayın 3-də isə saat 18:47-də təkrarən elektrik enerjisi itəndə analoji fəsadlar yarandı və bu dəfə pik saata təsadüf etdiyinə görə 30 minə yaxın sərnişin təxliyə olunub. Bu gün iyulun 4-də saat 13:10-da metropolitenin xətləri və stansiyaları yenidən sərnişindaşıma fəaliyyətinə başladı.

* * * * *

**Bakı Nəqliyyat Agentliyinin baş direktoru Vüsal KƏRİMLİ çıxış edərək dedi:**

-Məlum hadisədən sonra Bakı şəhərində bütün qarajlar gecə radələrində, Metropolitenlə əlaqə saxlanıldıqdan sonra hazır vəziyyətə gətirilmişdir. Ümumilikdə, yay aylarında Bakı şəhərində 1600 avtobus fəaliyyət göstərirdisə, onun sayı 2100-ə çatdırılmışdır. Bakı şəhərinin əsas nəqliyyat qovşaqları və giriş-çıxışları ehtiyat avtobuslarla təmin olunmuş və əhalinin rahatlığı üçün tapşırığınıza əsasən ödənişsiz fəaliyyət göstərməyə başlamışdır. Eyni zamanda, nəqliyyat qovşaqlarında havanın isti olması nəzərə alınaraq sərinləşdirici içkilər Bakı Nəqliyyat Agentliyi tərəfindən paylanmışdır. Bundan başqa, maarifləndirmə işlərində, avtoradio və sosial şəbəkələrdə insanların yol kəsişmələrində bir-birinə duyarlı olması məsələsi qaldırılmışdır və insanlarımız da, qeyd etdiyiniz kimi, bununla əlaqədar olaraq öz vətəndaşlıq borclarını, çox yüksək səviyyədə yerinə yetirmişlər. Bu arada, bildiyiniz kimi, Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzində də işıqforlarla əlaqə kəsilmiş, lakin elektrik enerjisi bərpa olunduqdan sonra işıqforların fəaliyyəti çox qısa zamanda yenidən təmin edilmişdir. İşıq olmadığı zaman Dövlət Yol Polisi tərəfindən bütün kəsişmələrdə dəstək və kömək göstərilmişdir.

* * * * *

**Prezident İlham ƏLİYEV:** Fizika İnstitutunun direktoru, məlumat vermək üçün məsələ var?

**Azərbaycan Milli Elmlər Akademiyasının Fizika İnstitutunun direktoru Nazim MƏMMƏDOV dedi:**

-Bəli, mən qısaca məlumat verə bilərəm. Artıq komissiyanın iş cədvəli təyin olunmuşdur. Bizim birinci iclasımız keçirilib, ikinci iclasımız saat 7-də Yaqub müəllimin yanında olacaq.

* * * * *

**Baş prokuror Zakir QARALOV dedi:**

-Möhtərəm cənab Prezident, baş vermiş qəza ilə bağlı verdiyiniz Sərəncamın 3-cü bəndinin icrasına uyğun olaraq cinayət işi qaldırılmışdır. Cinayət işi yanğın təhlükəsizliyi qaydalarını pozma, vəzifədən sui-istifadə etmə və səhlənkarlıq maddələri ilə qaldırılmışdır. Daxili İşlər və Fövqəladə Hallar nazirlikləri ilə birgə əmr imzalamaqla istintaq-əməliyyat qrupu yaradılmışdır. Hazırda istintaq-əməliyyat qrupu hadisə yerində təxirəsalınmaz tədbirlər həyata keçirir. Hadisə yerinə baxış keçirilmiş, müvafiq sənədlər götürülmüş və artıq hadisənin başvermə səbəbləri ilə bağlı dindirmələrə başlanılmışdır.

İclasdan əvvəl mənə verilən ilkin məlumata görə, həmin stansiyada generatorların gövdəsindəki hidrogen qazın soyudulması üçün normativ tələblərə əsasən suyun hərarəti 12 dərəcə olmalı olduğu halda, ümumi soyutma sisteminin layihəyə uyğun yerinə yetirilməməsi nəticəsində 28,5 dərəcədə olmuşdur. Vaxtilə 1994-cü ildə müvafiq layihə işlənilmiş, Mingəçevir su anbarının altından kanalın çəkilməsi nəzərdə tutulurdu. Həmin məsələ icra olunmamışdır. Belə bir halda gərginlik azalmaqla cərəyan artmışdır.

Digər vacib məsələ, qəza baş vermiş cərəyan transformatorlarının istismar müddətini başa vurmasına baxmayaraq, müntəzəm olaraq texniki istismar qaydaları, uyğun təmir-bərpa işləri aparılmamışdır. Halbuki hər il orada bərpa işləri aparılır, ancaq mütəxəssislərimiz həmin bərpa işlərinin yetərli olmaması ilə bağlı ilkin rəylərini verirlər. Belə ki, 2012-ci il sentyabrın 28-də ildırım vurması nəticəsində zədələnmiş hava açarı müasir eleqaz tipli açarla əvəz olunsa da, onun mühafizə dövriyyəsindəki cərəyan transformatoru yenisi ilə əvəz olunmamış və təmir işləri aparılmamışdır. Nəticədə cərəyan transformatorunun gövdəsindəki yağın analizi aparılmamış, turşululuğu, nəmliyi, deşilmə gərginliyi və tangensi yoxlanılmamışdır. Bununla da qəza vaxtı cərəyan transformatorunun izolyasiyası normadan aşağı olduğuna görə zədələnmişdir. Eyni zamanda, son 3 ildə Fövqəladə Hallar Nazirliyi tərəfindən həm "Azərenerji"nin rəhbərliyinə, həm onun baş mühəndisinə yazılmış 6-dan artıq tələbnamədə tələb olunurdu ki, orada həm yağ sızması mövcuddur, eyni zamanda, kabellərin odadavamlı izolyasiyası təmin olunmamış, ümumiyyətlə, baş verən yanğın haqqında məlumatın avtomatik verilməsi ilə bağlı sistem qurulmamış və 6 mazut çəninin su ilə soyutma sistemi ümumiyyətlə quraşdırılmamışdır. Dəfələrlə hər il bu məsələ qaldırılır, 6 mazut çənində su ilə soyutma sistemi quraşdırılmayıb. Bütün bunlar qəzaya gətirib çıxarmışdır. Siz tamamilə düzgün sual verdiniz ki, nə səbəbə görə bir elektrik stansiyasında baş vermiş qəza lokallaşmır, bütövlükdə bizim energetika sistemi çökür? Mütəxəssislərin fikri ondan ibarətdir ki, "Azərenerji" tərəfindən rele mühafizə xidməti ölkə üzrə tam axıra qədər icra olunmayıb. Yəni, bunu biz Sizə mütəxəssislərin əlavə rəylərini aldıqdan sonra təqdim edəcəyik. Müvafiq istintaq tədbirləri davam etdirilir və çox ciddi tədbirlərin görülməsi təmin ediləcəkdir.

* * * * *

**Prezident İlham ƏLİYEV:** Kiminsə əlavə sözü var? Beləliklə, Komissiyanın növbəti iclaslarında bütün bu məsələlər geniş müzakirə olunmalıdır. Bir daha demək istəyirəm ki, qəzanın səbəbləri araşdırılmalıdır. İndi ilkin məlumat var, amma gərək daha geniş məlumat əldə edilsin. Qəzanın səbəbləri vacib olsa da, bundan daha önəmli məsələ qəza nəticəsində ümumi sistemin sıradan çıxmasıdır. Bu, çox ciddi bir faktdır və əlavə tədbirlər görülməlidir ki, gələcəkdə əgər hər hansı bir qəza baş verərsə ümumi sistemə bunun təsiri olmasın, yəni, qəza lokal xarakter daşısın. Bu, hesab edirəm ki, komissiyanın işində əsas istiqamət olmalıdır. Tədbirlər planı hazırlanmalıdır. Tədbirlər planına bu gün bu müşavirədə səsləndirilən fikirlər də salınmalıdır, o cümlədən beynəlxalq auditin cəlb edilməsi məsələsi. Hesab edirəm ki, bu, çox vacibdir. Həm Mingəçevirdəki İstilik Elektrik Stansiyasının tam təftişi və auditi aparılmalıdır. Eyni zamanda, ölkəmizin bütün enerji sisteminin beynəlxalq, aparıcı, bu sahədə peşəkarlıqla seçilən qurumlar tərəfindən təhlili aparılmalıdır və təkliflər verilməlidir. Bu işlərdə günahı olan bütün insanlar müəyyən edilməlidir və onlar cəzalandırılmalıdır.

Fürsətdən istifadə edərək, bu vəziyyətdə bizə kömək göstərən Rusiya və Gürcüstan tərəfinə öz təşəkkürümü bildirmək istəyirəm. Onlar belə bir vəziyyətdə bizə kömək göstərdilər. Bildiyiniz kimi, Azərbaycan bu ölkələrlə sıx əlaqələr saxlayır, bizim dostluq əlaqələrimiz var və hər hansı bir qəza baş verdikdə biz də kömək göstəririk, onlar da kömək göstərirlər. Bu, hesab edirəm ki, çox önəmli amildir və bir daha öz təşəkkürümü bildirmək istəyirəm.

Strateji obyektlərdə generatorların quraşdırılması məsələsinə də baxmaq lazımdır, ilk növbədə xəstəxanalarda və metroda. İndi səhiyyə naziri məruzə edir ki, bütün xəstəxanalarda generatorlar işləyib. Məndə olan məlumata görə bu, həqiqətə uyğun deyil. Bəzi xəstəxanalarda generatorlar işləməyib, ya olmayıb, ya qoşulmayıb, ya da ki, işlək vəziyyətdə olmayıb. Ona görə, siz gərək ciddi təftiş aparasınız, bütün ölkə üzrə xəstəxanalarda generatorların mövcudluğu və onların işlək vəziyyətdə olması haqqında həm komissiyaya, həm də mənə məruzə etməlisiniz.

O ki qaldı metropolitenə, ümumiyyətlə, bildiyimə görə, metropolitendə generatorlar mövcud deyil. Hesab edirəm ki, bu da çox acınacaqlı faktdır. Tezliklə təkliflər verin ki, metronun bütün stansiyalarında generatorlar olsun və enerji ilə hər hansı bir problem yarandıqda insanlar əziyyət çəkməsinlər.

Hesab edirəm ki, komissiya öz işini tezliklə yekunlaşdıracaq və təkliflər hazırlayıb mənə təqdim edəcək.

# Dünyada balıq istehlakının həcmi artır



1961-ci ildən başlayaraq balıq məhsulları istehlakının həcmi Yer kürəsi əhalisindən iki dəfə sürətlə artır.

Bu meyil növbəti onillikdə də davam edəcək. 2030-cu ilə qədər balıq istehsalının 201 milyon tona çatacağı gözlənilir. Bu da cari göstəricilərdən 18 faiz çoxdur.

BMT-nin Xəbərlər Mərkəzinə istinadla xəbər verilir ki, bu barədə məlumat BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) yeni məruzəsində yer alıb.

FAO-nun baş direktoru Joze Qratsianu da Silva deyib: "Balıqçılıq sektoru FAO-nun dünyada aclığın və keyfiyyətsiz qidalanmanın aradan qaldırılması üzrə məqsədlərə nail olmasında həlledici əhəmiyyət daşıyır.

Onun iqtisadi artıma, habelə yoxsulluğa qarşı mübarizəyə töhfəsi isə artır". Yarım əsrdən çox müddət ərzində balıq istehlakı artmaqdadır. 2016-cı ildə planetimizin sakinləri adambaşına 20,4 kiloqram balıq yeyib, halbuki 1960-cı ildə həmin göstərici 10 kiloqramdan az olub. Bu, dəniz məhsulları sektorunda istehsalın ötən əsrin 80 və 90-cı illərində sürətlə genişlənməsi sayəsində mümkün olub. 2016-cı ildə yetişdirilən balığın həcmi 80 milyon tona çatıb ki, bu da insanın istehlak etdiyi bütün balığın 53 faizinə bərabərdir.

Balıq sənayesinə gəldikdə isə 2016-cı ildə onun həcmi 79,3 milyon ton təşkil edib. Ekspertləri təşvişə salan budur ki, əsas ovluq balıq növlərinin 33,1 faizi "dəyişkən bioloji səviyyələrdə" ovlanır. Bu göstərici 40 il əvvəllə müqayisədə üç dəfə yüksəkdir.

FAO-nun məruzəsində su ekosistemlərinin plastik kütlə parçaları ilə çirkləndirilməsi ilə bağlı problemlərin həllində əməkdaşlığın zəruri olması barədə də danışılır. Bunun üçün dünya okeanının çirklənmə səviyyəsini azaltmağa imkan verən profilaktiki tədbirlərə üstünlük verilməlidir.

# Azərbaycan Kredit Bürosunda sorğuların sayı 2 dəfədən çox artıb

Azərbaycan Kredit Bürosunda kredit təşkilatları tərəfindən həyata keçirilən sorğuların sayı 2 dəfədən çox artıb.

"Azərbaycan Kredit Bürosu" MMC-dən bildiriblər ki, hazırda büro ilə müqavilə imzalamış təşkilatların sayı 117-yə çatıb. Birinci yarımil ərzində büronun sistemindən 30 bank və 36 BOKT (Bank Olmayan Kredit Təşkilatı) istifadə edib. Qeyd olunan müddətdə büroda banklar və BOKT-lar tərəfindən 665.190 sorğu həyata keçirilib. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə kredit təşkilatları tərəfindən həyata keçirilmiş sorğuların sayından 2 dəfədən çoxdur.

Qeyd edək ki, 2017-ci ilin müvafiq dövründə analoji sistemdən kredit təşkilatları tərəfindən 330.071 sorğu yerinə yetirilib. Büroda aparılmış sorğuların 598.535-i banklar, 66.655-i isə 36 bank olmayan kredit təşkilatı tərəfindən həyata keçirilib. Bu dövr ərzində 1667 nəfər şəxs öz kredit hesabatlarını əldə etmək məqsədilə büroya müraciət edib. Müraciət etmiş şəxslərin 1652-si fiziki, 15-i isə hüquqi şəxslərdir.

# İyunda ərzaq məhsullarının qiymətləri 1,6 faiz ucuzlaşıb



Dövlət Statistika Komitəsindən bildiriblər ki, yanvar-iyun aylarında ölkədə istehlak məhsullarının və xidmətlərin qiymətləri 2017-ci ilin müvafiq dövrünə nisbətən 3,0 faiz, o cümlədən ərzaq məhsullarının qiymətləri 3,0 faiz, qeyri-ərzaq mallarının qiymətləri 3,8 faiz, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri 2,4 faiz bahalaşıb.

İyun ayında may ayına nisbətən istehlak məhsullarının və xidmətlərin qiymətləri 0,7 faiz, o cümlədən ərzaq məhsullarının qiymətləri 1,6 faiz ucuzlaşıb, qeyri-ərzaq mallarının və əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri isə sabit qalıb. Cari ilin son üç ayı ərzində ərzaq məhsullarının qiymətlərinin əvvəlki ayla müqayisədə ardıcıl olaraq ucuzlaşması ikinci rübdə birinci rübə nisbətən ümumilikdə istehlak məhsullarının və xidmətlərin qiymətlərinin 0,3 faiz aşağı düşməsinə səbəb olub.

Ay ərzində manna və qarabaşaq yarması, makaron məmulatları, qoyun əti, qatıq, pendir, kərə yağı, albalı, gilas, alça, ərik, çiyələk, pomidor, xiyar, badımcan, göy lobya, soğan və kartofun qiymətlərində ucuzlaşma, düyü, mal və toyuq əti, yumurta, zeytun, günəbaxan və qarğıdalı yağları, göyərti, şəkər tozu, dondurma, qara və yaşıl çayın qiymətlərində isə bahalaşma müşahidə olunub. Digər ərzaq məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

# Azərbaycan Avropa İttifaqı üçün ən iri elektron ticarət potensialı olan ölkədir




Bu barədə Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri, səfir Kestutis Jankauskas "Azərbaycanda elektron ticarət: mövcud vəziyyət və inkişaf perspektivləri" mövzusunda keçirilən tədbirdə deyib.

O bildirib ki, Azərbaycanda böyük perspektivlər var. Azərbaycan Avropa İttifaqı üçün böyük tranzit potensialına malik ölkədir. Burada dəniz, su və dəmir yolları xətləri var. Bu xidmətlər də getdikcə rəqəmsallaşır. Səfir qeyd edib ki, Avropa İttifaqı bu sahədə öz təcrübəsini Azərbaycana gətirə bilər: "Hazırda Avropada əksər xidmətlər onlayndır. Azərbaycan da bu istiqamətdə inkişaf etməlidir. Avropa İttifaqı bu sahədə Azərbaycana dəstək verməyə hazırdır".

# Paris Sülh Konfransı Ali Şurasının qərarı

"Azərbaycan Xalq Cümhuriyyəti İli" 100

Müttəfiq dövlətlərin Cənubi Qafqaz respublikalarına hərbi yardım göstərmək barədə Paris Sülh Konfransı Ali Şurası 1920-ci il 19 yanvar tarixli qərar qəbul etmişdir.

1919-cu ilin sonu – 1920-ci ilin əvvəllərində Sovet Rusiyasının hərbi uğurları nəticəsində Denikin qüvvələri darmadağın edilmişdi. Qırmızı ordu hissələri Şimali Qafqaz ərazisinə soxularaq, sürətlə Cənubi Qafqazdakı müstəqil dövlətlərin sərhədlərinə yaxınlaşırdı. "Dünya inqilabı" şüarını xarici siyasət fəaliyyətinin əsas prinsipinə çevirmiş Sovet Rusiyası 1920-ci ilin əvvəllərindən başlayaraq, Azərbaycan Xalq Cümhuriyyətinə diplomatik təzyiqləri daha da artırmışdı. Yeni yaranmış digər gənc dövlətlər kimi, Azərbaycan Xalq Cümhuriyyətinin də bolşevik təhlükəsinə qarşı təkbaşına mübarizə aparması qeyri-mümkün idi. Əlimərdan bəy Topçubaşovun baçşılığı ilə Paris Sülh Konfransında (1919-20) iştirak edən nümayəndə heyəti böyük dövlətlərdən Azərbaycan Xalq Cümhuriyyətinə dərhal hərbi yardım göstərilməsini xahiş etmişdi. Böyük dövlətlərin başçıları aydın dərk edirdilər ki, Sovet Rusiyasının təcavüzü təhlükəsi qarşısında Azərbaycanın və Gürcüstanın diplomatik baxımdan tanınması hələ kifayət deyildir. Bolşevizmin Yaxın və Orta Şərq ölkələrinə yayılmasının qarşısını almaq üçün Azərbaycan və Gürcüstana hərbi yardım göstərilməsi böyük dövlətlərin də maraqlarına cavab verirdi. Beləliklə, 1920-ci il yanvarın 15-də Versalda toplanmış hərbi eskpertlər şurası Azərbaycana və Gürcüstana hərbi yardım göstərilməsi məsələsini müzakirə etdi. Məsələnin ciddiliyini nəzərə alan B.Britaniya özünün yüksək rütbəli hərbçilərini - hərbi nazir U.Çörçilli, imperiya baş qərargahının rəisi feldmarşal H.Vilsonu, admirallığın birinci lordu U.Lonqu, admiral lord Bittini və b. Parisə göndərmişdi. Fransanın baş naziri J.Klemansonun tapşırığı ilə Fransa Xarici İşlər Nazirliyinin baş katibi Jül Kambon həmin gün Azərbaycan və Gürcüstan nümayəndələri ilə görüşərək, onların bolşevik təcavüzü təhlükəsi ilə əlaqədar fikirlərini öyrənmişdi. Kambon bu respublikaların hərbi, maliyyə və b. yardımlara ehtiyacları olması barədə Klemansoya məlumat versə də, Klemanso həmin məlumatları qənaətbəxş hesab etməmiş və yanvarın 16-da hərbi ekspertlərin onun sədrliyi ilə keçirilən müzakirələrinin yanvarın 17-də H.Vilsonun sədrliyi ilə



aparılacaq iclasda Azərbaycan və Gürcüstan nümayəndələrinin iştirakı ilə davam etdirilməsini zəruri saymışdı. Yanvarın 17-də keçirilən iclasda Azərbaycana və Gürcüstana yardım göstərilməsi məsələsi müzakirə olunsa da, müttəfiqlərin Qafqaza hərbi qüvvə göndərməsi məsələsinə toxunulmadı. Yanvarın 19-da İngiltərə, Fransa, İtaliya və digər dövlətlərin hökumət başçılarının iştirakı ilə Paris Sülh Konfransı Ali Şurasının iclasında Cənubi Qafqaz respublikalarının vəziyyəti müzakirə olundu. Marşal F.Foş müttəfiqlərin hərbi ekspertlər şurasının məruzəsi ilə çıxış etdi. İclasda ciddi mübahisə doğuran məsələ bu respublikalara göstəriləcək yardımın hansı formada və səviyyədə olması ilə bağlı idi. F.Foş, H.Vilson, U.Çörçill, J.Klemanso Cənubi Qafqaza ordu göndərilməsində israrlı olduqları halda, Böyük Britaniyanın və İtaliyanın baş nazirləri Lloyd Corc və Nitti yalnız hərbi sursat verilməsini zəruri hesab edirdilər.

Lloyd Corcun Azərbaycana və Gürcüstana göndəriləcək yardımla bağlı sualına hər iki nümayəndəlik adından İ.Sereteli cavab verdi. O, bildirdi ki, müttəfiqlərin yardımına böyük ehtiyac vardır və daha faydalı olardı ki, ordu göndərilsin. Lloyd Corcun Azərbaycanın silahlı qüvvələri haqqında sorğusuna cavab verən Azərbaycan Xalq Cümhuriyyəti nümayəndə heyətinin müşaviri M.Məhərrəmov zəruri silah-sursatın olacağı təqdirdə Azərbaycanın qısa müddətdə 100 min nəfəri orduya səfərbər edə biləcəyini bildirdi. Əlimərdan bəy Topçubaşov Ənzəlidəki ingilis donanmasının Bakının müdafiəsinə mühüm yardım göstərə biləcəyini nəzərə çatdırdı.

O, həmçinin Sovet Rusiyası ilə Cənubi Qafqaz respublikaları arasında bufer rolu oynayan Dağlılar Respublikasının müttəfiqlər tərəfindən de-fakto tanınmasını təklif etdi. İclasa yekun vuran Lloyd Corc Cənubi Qafqaza ordu göndərilməsinin qeyri-mümkünlüyünü, yardımın yalnız silah-sursat formasında olmasının vacibliyini bildirdi. O, açıq bəyan etdi ki, bu respublikalar hərbi qüvvələrini möhkəmləndirmək üçün özləri ciddi tədbirlər görməlidirlər. 19 yanvar iclasında Qafqaz məsələsinə dair 4 bənddən ibarət qərar qəbul edildi: 1) Ermənistan və Dağıstan de-fakto tanınmalıdır. Qərar Türkiyə ilə bağlı aparılacaq müzakirələrdə Ermənistanın sərhədləri məsələsinə toxunmur; 2) müttəfiq dövlətlər Cənubi Qafqaz respublikalarına ordu göndərmək imkanına malik deyillər;
3) müttəfiqlər Cənubi Qafqaz respublikalarına silah, hərbi sursat və ərzaq göndərməklə yardım göstərəcəklər;
4) marşal Foşdan və feldmarşal Vilsondan Cənubi Qafqaz respublikalarına göndəriləcək hərbi sursatın konkret şəkildə nədən ibarət olacağı və hansı yolla çatdırılacağı məsələlərinə baxmaları xahiş edilirdi.

Paris Sülh Konfransı Ali Şurasının 1920-ci il 19 yanvar tarixli bu qərarı ilə müttəfiqlər, əslində, Azərbaycana və Gürcüstana bolşevik təcavüzü qarşısında kömək göstərmədilər. Bu məsələni daim diqqət mərkəzində saxlayan Sovet Rusiyası Parisdə aparılan müzakirələrin məhz bu cür sonluqla bitməsini razılıqla qarşıladı. Bu qərarla böyük dövlətlər Sovet Rusiyasının keçmiş Çar Rusiyası sərhədlərini yenidən bərpa etmək səylərini de-fakto tanımış oldular. Qərar Azərbaycan və Gürcüstanın müstəqil dövlətlər kimi aradan qaldırılmasına yol açdı.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.**

# PAŞA Bank: "Biznesin maliyyələşdirilməsi üçün yeni alətlərin tətbiqinə başlamışıq"



Ölkənin aparıcı korporativ bankı PAŞA Bank Azərbaycan bazarında yeni alət - təchizat zəncirinin maliyyələşdirilməsi məhsulunu sahibkarlara təqdim edir. Yenilik haqqında daha ətraflı məlumat almaq və bu məhsulun ənənəvi kreditləşmədən fərqinin nədən ibarət olduğunu bilmək üçün biz **PAŞA Bankın Kiçik və orta sahibkarlıq üzrə bankçılıq departamentinin direktoru Aleksandr Qolovkoya müraciət etdik.** Həmin müsahibəni diqqətinizə çatdırırıq.

**- Təchizat zəncirinin maliyyələşdirilməsi nə deməkdir? Bu məhsul faktorinqdən (debitor borcunun maliyyələşdirilməsindən) nə ilə fərqlənir?**

-Bildiyiniz kimi, 2016-cı ildə bizim faktorinq adlı ənənəvi məhsulumuz bazara buraxılmışdır. Bankımızın 2018-2020-ci illəri əhatə edən strateji dövr üçün portfelinin inkişaf etdirilməsi çərçivəsində biz təchizat zəncirinin maliyyələşdirilməsini fəal inkişaf etdirmək niyyətindəyik.

Bura faktorinq alətləri, digər məhsullar, eləcə də bəzi modifikasiyalar daxildir. Bu modifikasiyalar təkcə bilavasitə müştəridən deyil, həm də təchizatçıdan mal alan alıcıdan ibarətdir. Burada belə bir üçbucaq yaranır: təchizatçı, alıcı və faktor (yəni, bank). Burada hər üç tərəf təchizat zəncirinin maliyyələşdirilməsindən qazanc əldə edir. Bu konsepsiya son zamanlar bütün dünyada yayılmış və sürətlə inkişaf etməkdədir. Ümumdünya meyilləri göstərir ki, yaxın 3-5 il ərzində bu məhsul inkişaf etməkdə davam edəcəkdir. Təchizat zəncirinin maliyyələşdirilməsi həm alıcılar, həm də təchizatçılar üçün dövriyyə kapitalının maliyyələşdirilməsinin effektiv alətidir. Bizim halımızda alıcı (topdan alıcı, ticarət agenti və s.) daha kiçik təchizatçılardan məhsul alan daha iri korporativ müştərilərdir.

Bu məhsul ondan ibarətdir ki, həm alıcı, həm də təchizatçı (satıcı) əməliyyat pul axınını effektiv idarə etmək imkanına malik olur. Bizə müraciət edərkən satıcının vəziyyətini aşağıdakı kimi təsvir etmək olar: onun debitor borcu var, məhsul satışından alacağı pulu ən azından 30-60 gün gözləməlidir. Banka təqdim etdiyi hesab-faktura (invoys) vasitəsilə və ya müqavilə ilə müraciət etdikdə, o, ən qısa müddətdə pulunu alır və öz növbəsində debitor borcunu azaldır. Satıcı öz kreditor borcunun (bankın alıcının əvəzinə ödədiyi vəsait) müddətini də artıra bilir. Artıq o, borcu təcili ödəməli deyil. Biz ona bu ödənişi etmək üçün daha çox vaxt təklif edə bilirik. Beləliklə, PAŞA Banka müraciət edən müştəri lazım olan pulu dərhal ala bilir, eyni zamanda, borcu ödəmək üçün vaxt qazanır.

**-Məhsulun ənənəvi kreditləşmədən fərqi nədən ibarətdir?**

-Bu konsepsiyada hər iki tərəf faydalanır: təchizatçı müraciət etdiyi vaxt pulunu alır və kreditor borcunu ödəmək üçün maksimal müddətə vaxt qazanır. Bu maliyyələşmənin təbiətindən irəli gələrək, biz alıcı ilə təchizatçı arasında olan qarşılıqlı münasibətləri yaxşı başa düşürük və onlara daha sürətli qərarlar qəbul etməyi təklif edirik. Bu risklərin sadəcə klassik qiymətləndirilməsi deyil, yəni klassik kredit xəttində müştərinin maliyyə-əməliyyat biznes modeli, pul axını proqnozu, borc yükünün tarixçəsi ətraflı nəzərdən keçirilirsə, bizdə sadəcə alıcı ilə təchizatçının qarşılıqlı münasibətləri, işin keyfiyyəti, biznesin artım potensialı nəzərdən keçirilir və bizə 3-5 gün ərzində maliyyələşdirmə üzrə limit müəyyənləşdirmək üçün qərar qəbul etmək imkanı verir. Bu üçbucaq çərçivəsində və biznesin qarşılıqlı əlaqəsi və təbiətindən irəli gələrək, biz şəffaf mənzərə yaradırıq və qısa bir zamanda biznesi maliyyələşdirə bilirik.

Eyni zamanda, məhsulun üstünlüyü onun şəffaf təbiətindən irəli gəlir. Biz alıcı ilə təchizatçının qarşılıqlı münasibətlərini nəzərə alır və qərar qəbul edərkən daha iri alıcıların olduğu münasibətlərə üstünlük veririk. Burada yarana biləcək kredit riski prinsip etibarilə alıcının bu ödənişi vaxtında həyata keçirməməsidir. Təchizat zəncirinin maliyyələşdirilməsinin ənənəvi kreditləşmədən növbəti bir üstünlüyü - girovsuz kreditləşmədir. Klassik anlamda işlədiyimiz bazarda, adətən, avtomobillər, daşınmaz əmlak, aktivlər və s. mütləq banka girov qoyulur. Girovsuz kreditləşmə müştəriyə daha əlverişlidir: bizdə girov kimi gələcək pul axını xidmət edir, mahiyyət etibarilə bu, debitor borcunun girovudur.

Hazırda biz dünyada, eləcə də Azərbaycanda baş verən rəqəmsallaşma meyillərini müşahidə edirik və bu, öz növbəsində ölkədə iş şəraitini xeyli dərəcədə asanlaşdırmağa imkan verir. PAŞA Bank olaraq biz qeyd edə bilərik ki, hazırda bizim müştərilər daha az tezliklə filiallarımıza gəlir, daha az sənəd toplayır və vaxtlarına qənaət edib, bir çox bank xidmətlərini İnternet Bank platforması vasitəsilə həyata keçirirlər. Bizim bütün xidmətlər müştərilərin işini asanlaşdırmağa yönəldilib, onların bankla olan əlaqələrini azaltmağa çalışırıq. Planımızda ilin sonuna qədər İnternet Bankın yeni versiyasını işə salmaq nəzərdə tutulub. Bu platformada kredit üçün müraciətlər, kreditin verilməsinin nəzərdən keçirilməsi prosesi, informasiya və sənəd mübadiləsi limitlərinin müəyyən edilməsi və digər proseslər rəqəmsal formatda həyata keçiriləcək. Bütün bunlar müştərinin kredit almaqla bağlı bankla işini xeyli asanlaşdıracaq.

**-Təchizat zəncirinin maliyyələşdirilməsi məhsulunun inkişaf etdirilməsi Banka nə verəcək?**

Hər şeydən əvvəl, burada bizim müştərilərimiz - kiçik və orta sahibkarlar üçün üstünlüklərimiz var. Belə ki, potensial müştərilərimizin əsas hədəf qrupu ölkəmizdə, bir qayda olaraq, iri biznes üçün mal və xidmətlər təklif edən təchizatçılardır. Adi qaydada əldə edilən kredit, kredit xətti açmaq üçün banka müraciət edən müştərinin maliyyə vəziyyətinin qiymətləndirilməsi, sənədlərin toplanması və başqa müvafiq prosedurаların aparılması müəyyən vaxt tələb edir. Təchizat zəncirinin maliyyələşdirilməsi isə adi kreditləşmədən fərqli olaraq, o qədər də sənəd tələb etmir, çünki PAŞA Bank olaraq biz dövriyyənin hər hansı rəsmi hissəsini görürük, biz müştəriyə verə biləcəyimiz limiti müəyyənləşdiririk, bu limit çərçivəsində müştərinin maliyyə vəziyyətinin dərindən araşdırılması, qiymətləndirilməsi tələb olunmur. Proqram üzrə kreditin ödənilməsinin əsas mənbəyi alıcının banka ödəyəcəyi debitor borcdur.

Bunun da mexanizmi çox sadədir: müştəri hesab-faktura (invoys) və ya müqavilə ilə banka müraciət edərək, növbəti gün gəlib pulu apara bilər. Borcun ödənilməsi müddəti başa çatdıqda, bu, adətən, 45-60 gün hesablanır, alıcı aldığı mal və xidmətlərin pulunu ödəyir, pul banka daxil olur və bu məbləğ avtomatik olaraq borcu bağlayır. Gördüyünüz kimi, dövriyyə kapitalının maliyyələşdirilməsi ilə müqayisədə, burada müştərinin iştirakı minimaldır.

Bir misal gətirmək istəyirəm: bəzi müəssisələr öz fəaliyyətlərini genişləndirmək məqsədilə böyük məbləğdə borc götürmək istəyirlər. Onlar üçün müəyyənləşdirilən limit biznesin ölçülərini dəqiq əks etdirir. Əgər bu müəssisə çox da böyük deyilsə, amma hər hansı potensial alıcı ilə yaxşı münasibətdədirsə, onunla bağladığı müqavilənin məbləği biznesin ölçülərindən artıqdırsa, bu müştəri bizim bank tərəfindən maliyyələşdiriləcək. Maraqlıdır ki, ənənəvi kreditləşdirmə xətti ilə ona bu məbləğ sadəcə verilməyəcək. Biz belə müştərini maliyyələşdirərkən onun gələcəkdə potensial pul axınını nəzərə alırıq. Başqa sözlə, onun gələcək uğuru bağladığı müqavilə, aldığı sifarişlə gələcək biznesinin artımını təmin edir.

**-Hansı hallarda təchizat zəncirinin maliyyələşdirilməsinin istifadəsi daha uyğundur?**

Bu məhsul müxtəlif istehsal, tikinti, xidmət, satış və digər şirkətlər üçün münasib maliyyələşmə imkanı ola bilər. Elə hallar var ki, məsələn, kiçik və orta biznesin son müştəriləri pərakəndə istehlakçılar olan pərakəndə ticarət obyektləri - restoranlar, kafelər və s. üçün ənənəvi standart kredit xətti daha əlverişlidir. Lakin sahibkarların mal və xidmətlərin satışı ilə məşğul olan və B2B (biznes üçün biznes) ilə işləyən kateqoriyaları üçün bu, ideal bir alətdir. Burada maliyyələşmə ucuz başa gəlir, heç bir girov tələb edilmir.

**-Bu xidmətin qiyməti barədə nə deyə bilərsiniz?**

-İndi bazarda dövriyyə kapitalının maliyyələşdirilməsinin qiyməti təqribən 17-18%-dir. Əgər biz təchizat zəncirinin maliyyələşdirilməsindən danışırıqsa, bu günə olan qiymətlərimiz daha iri korporativ biznesin maliyyələşdirilməsinin qiymətinə yaxınlaşır, elə bu səbəbdən də kredit riskinin qiymətləndirilməsi çərçivəsində kredit riskinin bir hissəsini iri müştərinin alıcılıq qabiliyyətinin üzərinə keçiririk. Buna görə də bu məhsulun faiz dərəcəsi, adətən, 2-3% az olur. Faiz dərəcəsindən danışarkən qeyd etmək lazımdır ki, bu rəqəm müştərinin təqdim etdiyi hesab-fakturadan (invoysdan), kredit müqaviləsindən və s. asılıdır. Daha böyük məbləğ üçün təqdim edilən hesab-faktura üzrə veriləcək kreditin faiz dərəcəsi də, təbii ki, müvafiq olaraq aşağı olacaq. Standart kreditləşmədən fərqli olaraq, kiçik və orta sahibkarlar üçün biz qiymətqoyma prosesinin özünü sadələşdirmişik.

Bizdə komissiyanın 2 növü mövcuddur: birincisi, limitin özü. Bu zaman veriləcək pulun limiti müəyyənləşdirilir – bu, birdəfəlik əməliyyatdır və bir il müddətinə müəyyən edilir. Bundan sonra müştəri yalnız illik komissiyanı ödəyir, belə ki, ikinci komissiya pullardan istifadə üçün illik faizdir. Bu komissiyalar sadə olub, adi kreditləşməyə çox oxşardır. Onu da qeyd etmək istərdim ki, sənədlərin göndərilməsi, maliyyələşdirmə üçün təqdim edilən invoysların, müqavilələrin miqdarı üçün komissiya tutulmur.

**-Müştərilərinizə olan tələblər barədə nə deyə bilərsiniz? Bu məhsuldan faydalanan müştəriləriniz iqtisadiyyatın hansı sektorlarını təmsil edirlər?**

Tələblər daha çox müştərinin bazarda uğurlu fəaliyyəti, iş təcrübəsi, bu sahədə kontragentlərlə qarşılıqlı münasibəti, işinin öhdəsindən nə dərəcədə gəlməsi, bank qarşısında reytinqi, kontragent kimi nüfuzu və s. ilə əlaqədardır. Demək olar ki, sadaladığım bu biznes göstəriciləri bazarda müəssisənin fəaliyyətinin uğurlu olub-olmamasını xarakterizə edir. Göstəricilər müsbət olduqda, həmin müştəriyə maliyyə xidmətləri göstərilir və onun hər hansı borcunun - istər 50 000 manat, istərsə də 500 000 manat olması fərq etmir. Tələblər müəyyən edilərkən müştərinin bu və ya digər banka olan kredit borcu nəzərə alınmır.

Əsas müştərilərimiz neft-qaz, tikinti, telekommunikasiya sahəsinin və supermarketlərin nümayəndələridir. Ayrıca sahə kimi xidmət sahəsini göstərmək olar. Müştərilər arasında iri korporativ müştərilər, artıq bazarda böyük nüfuz sahibi olan şirkətlər vardır.

**-Dediklərinizdən məlum olur ki, PAŞA Bankın bu məhsulu sahibkarlar üçün çox əlverişli və faydalıdır. Hazırda kiçik və orta sahibkarlar bu maliyyələşmədən nə dərəcədə xəbərdardır və lazımınca faydalana bilirlərmi?**

Qarşımızda təchizat zəncirinin maliyyələşdirilməsi məhsulunu kiçik və orta sahibkarlar arasında daha geniş yaymaq vəzifəsi durur. Biz bu sahədə sahibkarları əhatəli qaydada məlumatlandırmağa çalışacağıq. Ayrıca təşəbbüslər vasitəsilə sahibkarları təchizat zəncirinin maliyyələşdirilməsinin nə olduğu, müraciətlərin necə edilməsi, kreditin necə alınması, məhsulun ənənəvi kreditləşmədən fərqi, bu maliyyələşmə çərçivəsində kreditin necə əldə edilməsi və s. üzrə maarifləndirmək niyyətindəyik. Əminik ki, bu məhsul kiçik və orta sahibkarlar arasında geniş yayılacaq, onlar bu xidmətdən maksimum dərəcədə faydalanacaqlar.

**Yeganə MƏMMƏDOVA**

# AtaBank-ın Cash-in bankomatları artıq istifadənizdə!




Daim yüksək xidmət səviyyəsi ilə seçilən AtaBank ATM şəbəkəsini yeniləyərək 3 yeni Cash-in tipli bankomatı müştərilərinin xidmətinə təqdim edib. Artıq AtaBank-ın plastik kart istifadəçiləri bu bankomatlar vasitəsi ilə hesablarına dərhal vəsait mədaxil edə biləcəklər. Bu da onlara əməliyyatlarını vaxt itirmədən, daha rahat və sürətli həyata keçirmək imkanı yaradacaq.

Bu terminallardan yalnız bank müştəriləri istifadə edə biləcəklər. Cash-in bankomatları ilə bağlı "AtaBank" ASC-nin Marketinq və Kommunikasiyalar Departamentinin direktoru Oruc İbrahimov bildirib ki, "Müştəri məmnunluğuna daim önəm verən AtaBank yeni məhsul və xidmətləri ilə müştərilərini sevindirərək hər zaman bir addım öndə olmağa çalışır. Gələcəkdə AtaBank-ın ATM şəbəkənin genişləndirilməsi və daha bir neçə bankomatın Cash-in tipli bankomatlarla əvəz edilməsi planlaşdırılır".

Cash-in ATM-lərin quraşdırıldığı ünvanlar:

"Dostluq" filialı - Azadlıq pr., 124;
"Bakı" filialı - Neftçilər pr., 67;
"28 May" metro stansiyasının daxilində - əsas giriş. 1993-cü ildən fəaliyyət göstərən "AtaBank" ASC 100% yerli kapitala malik, qabaqcıl texnologiyalı, universal Azərbaycan bankıdır. Bank Bakıda və ölkənin müxtəlif regionlarında korporativ və fərdi müştərilərə tam xidmətlər spektrini təqdim edir.

# Nağdsız ödəmələrin genişləndirilməsi istiqamətində yeni Dövlət Proqramı hazırlanıb

Nağdsız ödəmələrin tətbiqi səviyyəsinin artırılması üçün ən mühüm sənədlərdən biri Mərkəzi Bank tərəfindən hazırlanan "2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı" hesab olunur.



Proqram layihəsinin hazırlanmasında iştirak edən Azərbaycan Milli Elmlər Akademiyasının İqtisad İnstitutunun direktoru Nazim Müzəffərli sənədin əsas məqsədinin iqtisadiyyatda nağdsız ödənişlərlə aparılan tranzaksiyaların əhəmiyyətli dərəcədə genişlənməsi, bununla da nağd ödənişlərin miqyasının minimuma endirilməsi, nəticədə bank sektorunun maliyyə resursları bazasının gücləndirilməsi və nağd pul tədavülü ilə bağlı yaranan tranzaksiya xərclərinin azaldılması olduğunu söyləyib.

Qeyd olunub ki, proqram çərçivəsində rəqəmsal iqtisadiyyata keçidlə bağlı infrastrukturun gücləndirilməsi, effektiv tənzimləmə metodlarının tətbiqi, ödəniş sistemlərinin texniki inkişafı, mobil operatorlara rəqəmsal ödəniş fəaliyyətinin həyata keçirilməsi üçün lisenziyaların verilməsi, milli ödəniş sistemi və bank hesabları arasında inteqrasiyanın artırılması, avtomatlaşdırılmış kommunal xərc ödənişlərinin genişləndirilməsi nəzərdə tutulur.

Nağdsız ödəmələrin genişləndirilməsi istiqamətində müəyyən edilmiş hədəflərə əsasən, internet və mobil bank sistemlərində elektron imzanın əhatə dairəsinin 2020-ci ildə 80-100 faiz səviyyəsinə çatdırılması, POS-terminallar vasitəsilə həyata keçirilən əməliyyatların məbləğinin 400 milyon manatdan 2,7 milyard manatadək artırılması, nağdsız qaydada həyata keçirilən kart əməliyyatlarının xüsusi çəkisinin 2020-ci ilədək 30 faizə, 2025-ci ilədək 50 faizə, 2025-ci ildən sonra isə 80 faizə çatdırılması planlaşdırılır.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün**

# Ekologiya və ətraf mühitin mühafizəsi

# ƏTRAF MÜHİTİN BÖHRANLI VƏZİYYƏTİ HƏR BİRİMİZİ DÜŞÜNDÜRMƏLİDİR

İnsan - təbiətin ən böyük möcüzəsi, bəşəriyyətin ən ali varlığı. Dünyaya gözünü açdığı gündən təbiətin bəxş etdiyi nemətlərdən faydalanır, suyunu içir, havası ilə nəfəs alır, torpağına qədəm basır, günəşin istisinə qızınır. Təbiətin yaratdığı bitkilərlə, suda-quruda yaşayan digər canlılarla qidalanır, təbiətin yeraltı-yerüstü sərvətlərindən istifadə edir. Yaşayır, böyüyür, inkişaf edir. Beləcə təbiətdən yararlanır. İnsan getdikcə təbiəti özünə təslim etmək üçün daha yaxşı vasitələr axtarmağa çalışır, yeni üsullara əl atır, maraqlı kəşflər dalınca qaçır. Meşələri, düzənlikləri, dağları gücümüzə ram edib, özümüzə yeni məskən seçirik, bəzən gölləri, bataqlıqları qurudub yerində evlər tikir, şəhərlər salırıq, bu yerlərin daimi sakinləri olan təbiətin digər canlılarını nəzərə almadan. Sanki bu zaman hər bir nemətin bizim üçün yarandığını, bizə məxsus olduğunu düşünürük fərqinə varmadan. Bəs, bütün bunların əvəzini nə ilə ödəyirik? Təbiətə olan əbədi borcumuzu qaytara bilirikmi? Bu suala cavab verməkdə hamımız acizik. Çünki cavabını dərindən düşündükcə bunun mümkünsüz olduğunu dərk edirik. Ən yaxşı halda mümkün qədər meşə sahələrini mühafizə etmək, ağaclar əkmək, nadir hesab olunan canlıları qorumaq, havanın zəhərli qazlarla çirklənməsinə mümkün qədər yol verməməklə təbiət qarşısında borcumuzun bitdiyini hesab edirik. Lakin bəşəriyyət Yer üzərində həyatını davam etdirdikcə, çox zaman bilmədən, istəmədən, öz mənafeyi naminə təbiətə böyük ziyan vurur. İnsanların sonsuz tələbatlarının əvəzində təbiətə qaytardığı isə çirklənmiş hava, su hövzələri, qırılmış meşələr, qurudulmuş göllər, suyu çəkilmiş çaylar, nəsli kəsilmiş nadir heyvanat və bitki aləminin acı taleyi oldu. Digər tərəfdən, daha dəhşətlisi istehsalın, texnogen amillərin zərərli təsirləridir ki, bu da zaman keçdikcə öz silinməz izlərini buraxır. Artıq 20-ci əsrin ortalarında dünya alimləri bu haqda həyəcan təbili çalmağa başladılar: təbiətlə cəmiyyət arasında olan qarşılıqlı əlaqələr nəticəsində yaranan problemlərin həllinə bəşəriyyətin diqqətini cəlb etməyə səy göstərdilər.

BMT Baş Assambleyasının 1972-ci il dekabrın 15-də keçirilmiş 27-ci sessiyasında BMT sistemində yeni təşkilat - Ətraf mühit üzrə BMT proqramı (UNEP) təşkil olundu və iyunun 5-inin beynəlxalq miqyasda "Ətraf mühit" günü kimi qeyd olunması qərara alındı. Buna BMT katibliyinə 23 ölkənin 2200 elm və mədəniyyət xadimlərinin 1971-ci ildə müraciəti səbəb olmuşdu: onlar bəşəriyyəti gözləyən amansız təhlükə - ətraf mühitin çirklənməsi ilə bağlı etiraz səslərini ucaltdılar – ya insanlar bu çirklənmənin qarşısını alacaq, ya da əksinə, o, insanlığı məhv edəcək. Bir il sonra Stokholmda keçirilən Ətraf mühitin qorunması ilə bağlı ümumdünya konfransında 113 dövlətin nümayəndəsi iştirak edirdi. Bu günü qeyd etməkdə əsas məqsəd təbiətlə amansız davranışın acı nəticələri haqda dərindən düşünmək, insanları bu problemin həlli yollarını axtarmağa çağırmaq idi.

**Sənayeləşmə və ekologiya**

Heç kəsə sirr deyil ki, 19-cu yüzilliyin sonlarından başlayaraq sənayenin sürətli inkişafı bəşəriyyətin yaşaması və fəaliyyəti üçün ekoloji vəziyyəti ildən-ilə deyil, gündən-günə pisləşdirir. Eləcə də iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə iri müəssisələrin atmosferə buraxdığı zərərli tullantıların xüsusi çəkisi artaraq, nəinki həmin ölkə, eləcə də qonşu ölkələr üçün böyük təhlükə törədir: torpaq çirklənir, meşələr məhv olur, su hövzələri quruyur, atmosferə buraxılan qazların, hidrosferə atılan zərərli tullantıların təsiri ilə müxtəlif xəstəliklər yayılır.

Bəs, görəsən atmosferə atılan ən zərərli tullantılar dedikdə, ilk olaraq nə nəzərdə tutulur? Şübhəsiz, zərərli qazlar və plastik kütlələr. Diqqətinizi plastik kütlələrin təbiətə vurduğu ziyanın acı nəticələrinə yönəltmək istərdim.

Plastiki 19-cu əsrin 2-ci yarısında ingilis alimi A.Parkes kəşf etdi, 21-ci əsrdə isə məhz plastikdən hazırlanmış məhsullar böyük ekoloji bəlanın əsas səbəblərindən birinə çevrildi. Plastik kəşf olunandan məişətimizə o qədər tez və möhkəm daxil oldu ki, köhnə materialları – taxtanı, dəmiri, digər materialları sıxışdırıb çıxardı. İlk baxışda düşünürsən ki, bunun nəyi pisdir? Plastik məhsullar yüngüldür, ucuzdur, davamlıdır, üstəlik ağaclar kəsilmir, dəmir materialların hazırlanmasına isə vaxt və əmək sərfi xeyli çoxdur. Lakin bunun bir mənfi cəhəti var: plastiklər insan həyatına son qoyan vasitələrdən biridir. Plastik paketlərin, qabların, eləcə də faks kağızları, kassa çeklərinin, bir sıra tibbi-stomatoloji avadanlıqların tərkibində plastmasa bərklik verən xüsusi maddə - bisfenol A var. Bu maddə orqanizmə mədə-bağırsaq yolu, tənəffüs sistemi və dəri vasitəsilə daxil olur. Bu baxımdan içərisində qida olan plastmas qabların termiki təsirə məruz qalması daha təhlükəlidir. Bisfenol A orqanizmdə endokrin pozğunluqlar, sinir sistemində dəyişikliklər, şiş xəstəliklərinin yaranması ehtimalını artırır.

Yaponiya hökuməti konserv, içki qablarında bisfenol təbəqəsinin tətbiqindən tamamilə imtina etmişdir. ABŞ-ın Qida məhsulları və dərmanların keyfiyyəti üzrə sanitar nəzarəti idarəsi 2010-cu ildə bisfenolun insan orqanizmi üçün ölüm təhlükəsi yaradan maddə olduğunu sübut etdi və rəsmi olaraq qəbul etdi. Lakin ÜST və Qida məhsullarının təhlükəsizliyinə nəzarət üzrə Avropa idarəsi bunu təhlükəli hesab etmədi. Ehtimal var ki, nəhəng Transmilli şirkətlərin bu məsələdə təzyiqi güclü olmuşdur. Onlar insanların həyatı bahasına da olsa, mənfəət qazanmağı daha üstün tuturlar. Bu, məsələnin bir tərəfi.

**Plastik tullantıların sayı artmaqdadır**

Digər tərəfdən, insanlar gündəlik həyatda, məişətdə birdəfəlik qablar, qablaşdırma materialları, plastik paketlərdən geniş istifadə etdikcə, plastik kütlələrdən ibarət tullantıların da sayı get-gedə artır. Bu zərərli tullantılar isə təbii amillərin təsiri nəticəsində heç də parçalanıb, məhv olmurlar. Təxmini hesablamalara görə, 1950-ci ilə kimi ətraf mühitə 1 mlrd. tondan çox plastik kütlə buraxılmışdır. Alimlər belə nəticəyə gəlmişlər ki, plastik qabların ultrabənövşəyi şüaların və temperaturun təsiri ilə tam əriməsi üçün 100-500 il tələb olunur.

Nəzərə alsaq ki, hər il 300-600 mln. ton plastik məhsullar istehsal olunur, bu rəqəmin getdikcə artması istisna deyil. Bundan əlavə, birdəfəlik istifadə üçün istehsal olunan qablar təkrar istifadəyə yaramır. Plastmasdan ikincili xammal kimi tikinti qarışıqları, üzlüklər, izolyasiya materialları, texniki qurğular, istilik, elektrik enerjisi üçün istifadə olunur. Plastiklərin yenidən işlənməsi ekologiya üçün ən ağrılı məsələdir.

**Dünya ölkələrində plastikə yeni münasibət yaranıb**

Artıq bir sıra ölkələrdə istehsalçıların əksəriyyəti ətraf mühitə zərərli tullantılar buraxıldığına görə əlavə vergilər və vəsaitlər ödəyirlər. Ona görə də hazırda Avropada plastiklər kağızdan, kartondan bahadır. Plastik məhsul istehsal edən müəssisələr il ərzində havaya təxminən 400 mln. ton karbon qazı buraxır və nəticədə təxminən 800 növ canlı plastikdən zəhərlənmə təhlükəsi ilə üz-üzə qalır. Plastik qablar tullantıların əsas hissəsini təşkil edir, paketlər su yollarını, kanalizasiya borularını tıxayır, subasma təhlükəsi yaradır. İstər torpaqda, istərsə su hövzələrində plastiklərdən ayrılan toksiki və kanserogen təsirli kimyəvi maddələr getdikcə daha çox aşkar olunmaqdadır. Plastik hissəciklərdən dənizlərdə balıqların və quşların zəhərlənməsi alimlər tərəfindən təsdiq olunmuşdur. Canlılar insanların tullantıları ilə qidalanırsa, deməli, həmin zəhərli maddələr yenidən su ilə, yeməklə insanlara qayıdır. Ekoloqların hesablamalarına görə, dünya okeanına ən çox zərərli maddələrin buraxılması Çinin payına düşür, eləcə də bu siyahıda Vyetnam, Tailand, İndoneziya, Filippin də ön sıralardadır. ABŞ, Aİ, Norveç və Çində gündəlik plastik kütlələrin tullantıları 37 min tona çatır, Rusiyada isə 10 mindən çoxdur. Dünya İqtisadi Forumunun 2017-ci il məruzəsinə görə, 2050-ci ildə plastikdən ibarət tullantıların həcmi dünya okeanındakı balıqların sayını ötəcək.



**Çıxış yolunu nədə axtaraq, plastiki nə ilə əvəz edək?**

Kağızlara üstünlük verək: kağızın tərkibi bitkilərin əsas komponenti olan sellülozadan ibarətdir, ona görə də ətraf mühitə düşərək tez parçalanır və təbiətə qarışır.

> **Təbiətə qarşı işlənən cinayətin qisası insan ədalətindən daha çətindir.**
>
> **F.Dostoyevski**

Şüşə, saxsı qablar görünüşünə və rahatlığına görə plastik qablarla rəqabətdə uduzsalar da, sağlamlıq baxımından zərərsiz olduğu üçün onlardan istifadəyə üstünlük verək. Plastik qapı-pəncərə germetikdir, səs və hava keçirmir, hər cür deformasiyalara dözümlüdür. Lakin təbii taxtanı ekoloji cəhətdən təmizliyinə görə heç bir süni material əvəz edə bilməz və s.

Ölkəmizdə bu sahədə vəziyyət necədir? Bu baxımdan hansı tədbirlər görülməlidir?

Artıq dünyanın 40-dan çox ölkəsində plastik paketlərdən istifadədə qanunla müəyyən olunmuş bir sıra məhdudiyyətlər və qadağalar mövcuddur.

Ölkəmizdə də ekoloji tarazlığın pozulmasının qarşısının alınması dövlət tərəfindən bir sıra qanunlar və normativ aktlarla tənzimlənir. İstehsalat və məişət tullantıları haqqında Azərbaycan Respublikasının Qanununun 4-cü maddəsində göstərilir ki, tullantıların idarə olunması sahəsində dövlət siyasətinin prinsipləri ilk növbədə əhalinin sağlamlığının və ətraf mühitin ekoloji tarazlığının qorunmasına yönəldilmişdir. Bununla belə, ətraf mühitin çirklənməsindən dəymiş ekoloji, sosial-iqtisadi ziyanın (xəstəliklər, maddi dağıntılar, təbii mühitin tənəzzülü) qarşısının alınması mühüm vəzifə kimi ön plana çəkilməlidir. Ölkədə istehsal və idxal olunan plastik materialların keyfiyyətinə nəzarəti gücləndirmək, onların insan həyatına zərərini minimuma endirmək sağlam gələcəyimiz üçün vacib məsələdir. Ehtiyac olarsa, cərimələr, sanksiyalar tətbiq edərək iqtisadi yolla bu problemin həllinə nail olunmalıdır. Qeyd edilən qanunun 18-ci maddəsində göstərilir ki, tullantılarla bağlı fəaliyyət sahəsində iqtisadi tənzimlənmə tullantının toplanmasına, istifadəsinə və zərərsizləşdirilməsinə görə haqq ödənilməsi prinsi-pinə əsaslanır.

Əslində, bu işdə hər birimiz fəal olmalı, sağlamlığımıza, gələcəyimizə biganə qalmamalıyıq. Ətraf mühitə atılan zərərli tullantıların miqdarının mümkün qədər azaldılması məqsədilə plastiklərin mənfi xüsusiyyətlərini ətraflı şəkildə mətbuat, digər yayım vasitələri ilə insanlara çatdırmalı, bu sahədə əhalinin maariflənməsinə çalışmalıyıq ki, hədəfə yaxınlaşa bilək.

**P.S. Avropada dəfələrlə bizim ölkədə 25-30 il bundan öncəki vaxtları xatırladan mənzərə ilə rastlaşmışam. İnsanlar alış-verişin miqyasından asılı olmayaraq, marketlərə, bazarlara xüsusi dükan zənbili ilə üz tuturlar. Bu, onların alış-verişi öncədən planlaşdırdığını göstərməklə yanaşı, həm də uzunmüddətli istifadə üçün nəzərdə tutulmuş çantalara üstünlük vermələrindən xəbər verir. Bu ölkələrin əksəriyyətində plastik paketlərin satışına qanunla məhdudiyyət qoyulur, yaxud da onların istehsalçıları və satışını həyata keçirən şirkətlər qanunla müəyyən olunmuş qaydada əlavə vergi ödəməlidirlər. Elə buna görə həmin ölkələrdə plastikdən hazırlanan paketlər pulla satılır. İnsanlar da xüsusi bazar zənbilindən istifadə etməklə həm pula qənaət edir, ən əsası isə ətraf mühitə zərərli maddələrin buraxılmasının qarşısını almış olurlar. Düşünürəm ki, bizim ölkədə də insanlarımız bu cür addımlar atmaqla istehlak mədəniyyətini təkmilləşdirmək, yaxın keçmişin bəzi ənənələrini bərpa etməklə təbiətin mühafizəsinə dolayı da olsa, fayda vermiş olarlar.**

**Aytən Səmədzadə**